AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ UĞRUNDA

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

20 SENTYABR 2018-ci il CÜMƏ AXŞAMI № 209 (6242) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Azərbaycan Prezidenti İlham Əliyev Avstriyanın vitse-kanslerinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Avstriya Respublikasının vitse-kansleri Haynts-Kristian Ştraxenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Avstriya arasında əlaqələrin yaxşı səviyyədə olduğunu vurğulayaraq Avstriyanın keçmiş Prezidenti Haynts Fişerin Azərbaycana və özünün Avstriyaya rəsmi səfərini məmnunluqla xatırladı. İqtisadi sahədə əməkdaşlığın da çox yaxşı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev bir sıra Avstriya şirkətlərinin uzun illərdir Azərbaycanda uğurlu fəaliyyət göstərdiklərini vurğuladı. Dövlətimizin başçısı əminliklə qeyd etdi ki, Avstriya Respublikasının vitse-kansleri Haynts-Kristian Ştraxenin böyük nümayəndə heyəti ilə Azərbaycana səfər etməsi onların ölkəmizlə yaxından tanış olmaları üçün yaxşı imkan yaradacaq və səfər zamanı idman, nəqliyyat və digər sahələrdə əməkdaşlıqla bağlı aparılan danışıqlar ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına öz töhfəsini verəcəkdir.



Vitse-kansler Haynts-Kristian Ştraxe Avstriya Respublikasının Kansleri Sebastian Kurtsun salamlarını dövlətimizin başçısına çatdırdı. Haynts-Kristian Ştraxe qeyd etdi ki, böyük nümayəndə heyəti ilə ölkəmizə səfərinin əsas məqsədi yaxşı səviyyədə olan Avstriya-Azərbaycan əlaqələrini daha da dərinləşdirmək və əlaqələrimizin xoş ənənələrindən çıxış edərək bu işlərə töhfə vermək niyyətindən ibarətdir. O, iki ölkə rəsmiləri arasında təmasların əlaqələrimizin inkişafı baxımından önəmli olduğunu dedi. Haynts-Kristian Ştraxe ölkələrimiz arasında iqtisadi və digər sahələrdə əməkdaşlığı dərinləşdirmək, strateji əhəmiyyətli məsələlərin müzakirəsi və konkret birgə layihələrin icrası məqsədilə şuranın yaradılmasını və bu şuranın iclaslarının mütəmadi olaraq keçirilməsini təklif etdi. O, eyni zamanda, bildirdi ki, ölkəsi Avropa İttifaqından Azərbaycana investisiyaların cəlb olunması, Avstriya texnologiyalarının ölkəmizə gətirilməsi və burada istehsal olunan məhsulların ixrac edilməsində maraqlıdır. Qonaq, həmçinin qeyd etdi ki, Avstriya tərəfi Azərbaycan şirkətlərinin ölkəsində təmsil olunmasına da maraq göstərir və Azərbaycan məhsullarının Avropa İttifaqı bazarlarına çıxarılması işində ölkəmizə dəstək verməyə hazırdır.

Dövlətimizin başçısı Avstriya Kansleri Sebastian Kurtsun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avstriyanın Federal Kanslerinə çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

## S.İ.Sadıqovun Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Sadiq İzzət oğlu Sadıqov Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 19 sentyabr 2018-ci il.**

## M.Y.Şvıdkoyun “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əlaqələrin inkişafında səmərəli fəaliyyətinə görə Mixail Yefimoviç Şvıdkoy “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 19 sentyabr 2018-ci il.**

## Hüseyn Saltuk Düzyolun “Dostluq” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) layihəsinin vaxtında və keyfiyyətlə icra olunmasında xidmətlərinə görə layihənin Baş icraçı direktoru Hüseyn Saltuk Düzyol “Dostluq” ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri,19 sentyabr 2018-ci il.**

## Azərbaycan Respublikasının neft sənayesi işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında neft sənayesi sahəsində uzunmüddətli səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**“Şöhrət” ordeni ilə**

Həsənov Həmid Qəzənfər oğlu

**3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə**

Əliyev Rəşad Qədim oğlu

**3-cü dərəcəli “Əmək” ordeni ilə**

Bəkirov Şaiq Xanbaba oğlu
Hüseynov Həbib Abdul oğlu
İsgəndərov Rövşən Mirzəhüseyn oğlu
İsmayılov Elman Abbas oğlu
Quliyev Nəriman Abubəkir oğlu

**“Tərəqqi” medalı ilə**

Abaslı Qulu Nəriman oğlu
Abasov Həsən Əli oğlu
Abbasov Əmir Zeynal oğlu
Abbasov Qadir Seyidəhməd oğlu
Abbasov Rafiq Hümbət oğlu
Abdullayev Fəqani Nəzir oğlu
Axundov İxtiyar Əli Rasim oğlu
Ayan Mustafa
Azadlı Namiq Nazim oğlu
Bayramov Elman Allahverdi oğlu
Bayramova Mətanət Vilayət qızı
Cəfərov Nadir Zeynal oğlu
Əhmədov Xanəhməd Əhməd oğlu
Əhmədov Şıxbala Şıxəli oğlu
Əhmədov Zahid Nurəhməd oğlu
Əliyev Arif Əliağa oğlu
Əliyev Həsən Mirələm oğlu
Əliyev Məmməd Qurban oğlu
Əliyev Yasər Xasay oğlu
Əlizadə Mərdan Fərman oğlu
Feyziyev Nüdrət Hidayət oğlu
Hacıyeva Gülnara Xanım Şaiq qızı
Həsənov Əflatun Mürsəl oğlu
Həsənov Ələkbər Rəsul oğlu
Həsənov İlqar Lütfiq oğlu
Hüseynov Arif Güləhməd oğlu
Hüseynov Rasim Ənvər oğlu
Hüseynov Tofiq Vəli oğlu
Xankişiyev İfrahil İbrahim oğlu
İsmayılov Akif Məhəmməd oğlu
Katibli Rüfət Rafiq oğlu
Kərimov Həsənbəy Seyfutdinoviç
Kirdoda İqor İvanoviç
Mehdiyev Mehman Adil oğlu
Məmmədov Anar Fərruh oğlu
Məmmədov Emil Bəhruz oğlu
Məmmədov Fərhad Balabəy oğlu
Məmmədov Nizami Əli oğlu
Məmmədov Sahib Qəhrəman oğlu
Məmmədov Yaşar Məmməd Kərim oğlu
Mirzəyev Amil Canalı oğlu
Mirzəyev Gülməmməd Nifti oğlu
Nəzirov Cavanşir Nadir oğlu
Novruzov Əli Tofiq oğlu
Rəhimov Qivaməddin Abbas oğlu
Rüstəmov Polad Sabir oğlu
Səlimov Zülfüqar Abdurəhim oğlu
Sultanov Fuad Hüseynağa oğlu
Şəfiyev Rafik Şəfi oğlu
Tağıyev Zalid Abdulhəmid oğlu
Tahirov Tərlan Telman oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 19 sentyabr 2018-ci il.**

## Azərbaycan Respublikasının neft sənayesi işçilərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və “Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasında neft sənayesi sahəsində uzunmüddətli səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Həsənov Raqif Yaqub oğlu
Nərimanov Akif Əli oğlu
Orucov Nizami Nəcəfqulu oğlu
Ramazanova Elmira Məmmədəmin qızı.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 19 sentyabr 2018-ci il.**

## Azərbaycan Respublikasının neft sənayesi işçilərinə fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında neft sənayesi sahəsində uzunmüddətli səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**“Əməkdar mühəndis”**

Aslanov İlham Tağı oğlu
Hüseynov Otel Əhmədiyə oğlu
Quliyev Kərim Yaqub oğlu
Mehdiyev Faiq Mehdi oğlu
Nağıyev Roman Fərhad oğlu
Şamilov Valeh Məmməd oğlu

**“Əməkdar müəllim”**

Vəliyev Fuad Həsən oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 19 sentyabr 2018-ci il.**

## Quba rayonunun İdrisqışlaq-Qasımqışlaq-Xaspolad-Zərqava-Aspərəsti-Çayqışlaq avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Altı min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən İdrisqışlaq-Qasımqışlaq-Xaspolad-Zərqava-Aspərəsti-Çayqışlaq avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 10,8 milyon (on milyon səkkiz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 19 sentyabr 2018-ci il.**

# Nazirlər Kabinetinin rəsmi internet saytı yeni tərtibatda fəaliyyətə başlayıb




**Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı (www.cabmin.gov.az) yeni tərtibatda fəaliyyətə başlayıb.**

AZƏRTAC xəbər verir ki, saytın strukturu təkmilləşdirilib, yeni funksional bölmələr əlavə edilib və ən son internet texnologiyaları əsasında mükəmməl dizayn hazırlanıb.

Saytın baş səhifəsində Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun fəaliyyəti ilə bağlı ən son xəbərlər və yeniliklər yerləşdirilib. Bununla yanaşı, baş səhifədəki axtarış xidməti vasitəsilə müvafiq xəbərləri və imzalanmış sənədləri əldə etmək olar.

Baş səhifədə edilmiş yenilik, həmçinin Baş nazirin fəaliyyəti və imzalanmış sənədlər barədə Twitter sosial internet şəbəkəsindən operativ məlumat əldə etməyə imkan verir.

Saytda "Azərbaycan", "Xəbərlər", "Sənədlər", "Rəhbərlik", "Nazirlər Kabineti", "Nazirlər Kabinetinin Aparatı", "Müraciətlər", "Əlaqə" bölmələri yenilənmiş formatda fəaliyyət göstərir.

"Azərbaycan" bölməsində ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti, Azərbaycanın tarixi, ərazisi, Konstitusiyası ilə tanış olmaq mümkündür. Bu bölmədə, habelə milli bayramlar, tariximizin qanlı səhifələri, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə məlumatlar və iqtisadi mövzuda materiallar yerləşdirilib.

"Xəbərlər" bölməsində Baş nazirin görüşləri və səfərləri, iştirak etdiyi tədbirlər haqqında xəbərlər, eləcə də Nazirlər Kabineti mətbuat xidmətinin məlumatları, "Sənədlər" bölməsində isə Nazirlər Kabinetinin qərarları və məktublar yer alır.

"Rəhbərlik" bölməsində Baş nazir və Baş nazirin müavinləri, "Nazirlər Kabineti" bölməsində isə Nazirlər Kabinetinin statusu, səlahiyyətləri, iş qaydası, tərkibi, mərkəzi icra hakimiyyəti orqanları, "Nazirlər Kabinetinin Aparatı" bölməsində aparatın strukturu və əsasnaməsi barədə məlumatlarla tanış olmaq mümkündür.

"Müraciətlər" bölməsində isə vətəndaşlara Nazirlər Kabinetində qəbul günləri, qəbula yazılmaq, elektron qaydada müraciət qaydaları barədə məlumat verilir. Həmçinin bu bölmədə müraciətlə bağlı qanunvericilik aktları əksini tapıb.

Saytda ən son nailiyyətlər əsasında fotoqalereya təqdim edilir. Burada Baş nazirin görüşlərindən və səfərlərindən, iştirak etdiyi tədbirlərdən fotoşəkillər verilir.

Nazirlər Kabinetindən verilən məlumata görə yaxın vaxtlarda saytın xarici dillərdə də (rus və ingilis) bölmələri təqdim olunacaq.

**AZƏRTAC**

# Paşinyanın oğlunun hərbi xidmət piarından yararlanmaq cəhdi nə vəd edir...

**Hər bir xalqın taleyində önəmli rol oynamış, öz əməlləri ilə adını tarixə yazmış şəxsiyyətlər var. Ümummilli lider Heydər Əliyev bu dövləti məhv olmaq təhlükəsindən xilasetmə missiyasını öz üzərinə götürməklə, bütün zamanını, sağlamlığını Azərbaycan dövlətçiliyini qorumaq, qurmaq və inkişaf etdirmək kimi ali bir məqsədə həsr etməklə və bu vəzifəni layiqincə yerinə yetirməklə adını xalqımızın tarixinə qızıl hərflərlə yazdı. Heydər Əliyev haqq dünyasına gözü arxada qalmadan, rahat köçdü. Ona bu rahatlığı gördüyü işlərin və xalqı qarşısında xidmətlərinin sərhədsiz miqyası verirdi. Bir də ki, Ulu Öndər təməlini qoyduğu siyasətin gələcəkdə də davam edəcəyinə və Azərbaycanı yeni qələbələrə aparacağına əmin idi və son 15 ilin mənzərəsi də dahi şəxsiyyətin nə qədər düzgün düşündüyünü isbat etdi. AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov özünün "Facebook" səhifəsində yazıb.**



Əli Həsənov qeyd edib ki, Prezident İlham Əliyev kiçik bir ölkəni dünya çapında nüfuzlu, sayılıb-seçilən, səsi eşidilən bir dövlətə, dünya qarşıdurma və terrorla üz-üzə olarkən dinamik inkişaf edən sabitlik adasına çevirməklə əsl siyasətçinin nəyə qadir olduğunu nümayiş etdirdi. Bədxahlar "Azərbaycan çökür" deyərkən Azərbaycan daha möhtəşəm addımlarla irəlilədi, "hakimiyyətin sonudur" iddia edənlər hakimiyyətin gündən-günə gücləndiyini gördülər, "bu siyasətin sonu yoxdur" xülyası ilə yaşayanlar həmin siyasətin zəfərlərini sayıb qurtara bilmirlər...

Qarşı tərəfdə Azərbaycana meydan oxuyan siyasətçilərin aqibətinə baxın... Ter-Petrosyanı tarixə gömən Koçaryan-Sarkisyan mafiyasını "demokratik inqilab" adı altında küçədən siyasətə gəlmiş Paşinyan kimi bir populist layiq olduqları yerə göndərdi. İndi də barələrində cinayət işi qaldırılır, illərlə erməni xalqına qarşı törətdikləri cinayətlərin hesabı soruşulur. Ancaq necə?

Paşinyan hakimiyyətə gələndə ermənilər eyforiyaya qapılaraq bunu bütün dünyada qapıların üzlərinə açılması, "demokratik" Ermənistanın Azərbaycan üzərində tam qələbəsi kimi anladılar. İnvestisiyaların sel kimi axacağını, dünya liderlərinin bir-birinin ardınca Ermənistana səfər edəcəyini, Azərbaycan ərazilərinin işğalının qanuniləşdiriləcəyini zənn etdilər.

İndi erməni mətbuatı nə yazır? Paşinyan diktatora xas olan üsullarla öz opponentlərini əzməyə çalışır, ölkədə dərəbəylik və xaos hökm sürür, iqtisadiyyat tam iflas astanasındadır, xarici siyasətdə uğursuzluqlar bir-birini əvəz edir. Ermənistanın baş naziri beynəlxalq tədbirlərdə digər ölkələrin başçıları ilə selfi çəkdirməyi yerli ictimaiyyətə Ermənistanın "xarici siyasət uğuru" kimi sırımağa çalışır. Hakimiyyətə gələndən sonra verdiyi vədlərlə törətdiyi əməllərin arasında yaranmış uçurumu populist bəyanatlarla və sərsəm addımlarla kompensasiya etməyə çalışır. Bəyan edir ki, keçmiş hakimiyyətin oğurladığı sərvəti xalqa qaytarmaq uğrunda mübarizə aparır. Amma indi hamı başa düşür ki, o, bu sərvətdən öz şəxsi haqqını istəyir. Paşinyan demokratik idarəçilikdən dəm vurur, amma Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanetsyan ilə Xüsusi İstintaq Xidmətinin rəisi Sasun Xaçatryan arasında baş tutan telefon danışığı bu "demokratik" addımların konturlarını tam aydınlığı ilə cızır. Baş nazir ölkədə artıq hakimiyyətin medianın fəaliyyətinə müdaxilə etmək ənənəsinə son qoyulduğunu bəyan edir, bir gün sonra isə Ermənistanda gizli yazılan telefon danışığı haqqında məlumatı ilk yayanlardan biri olmuş "Yerevan.today" saytının redaksiyasında və baş redaktorun yaşadığı evdə axtarış aparılır.

Bir gün yuxudan ayılıb Azərbaycanı Dağlıq Qarabağdakı separatçı rejimlə danışıqlar aparmağa çağırır. Sabahı gün də sözlərini geri götürür. Dağlıq Qarabağ ətrafındakı 7 rayonu "DQR" ərazisi elan edir və bununla da beynəlxalq ictimaiyyətə, ATƏT-in Minsk qrupunun həmsədrlərinə hörmətsizliyini açıq büruzə verir. Komandasını rusofoblardan formalaşdırır, gündə bir neçə dəfə də Rusiya ilə münasibətlərə sadiqliyindən danışır. Artıq hamı başa düşür ki, Ermənistanın baş naziri tutduğu posta qeyri-adekvatdır, siyasətçi adına parodiyadır və onun barəsində "erməni radiosunun" anekdotları artıq qısa zaman məsələsidir.

Əgər bir siyasətçi övladını, ailəsini siyasi alver predmetinə çevirirsə, onun rəhbərlik etdiyi xalqı hansı fəlakətlər gözlədiyini ehtimal etmək bir o qədər də çətin deyil. "DQR"in "müstəqil dövlət olduğunu" və Azərbaycanın bu "dövlətlə" danışıqlar aparmasının zəruriliyini iddia edən baş nazirdən soruşulmalıdır ki, sənin oğlun nəyə görə bu "müstəqil dövlətdə" hərbi xidmətdədir? Əslində, bu addımı atmaqla, o, nəinki işğal faktını təsdiqləyir, üstəlik məhz Ermənistanın münaqişə tərəfi olduğunu etiraf edir. Hələ bir həyasızcasına Azərbaycan Prezidentinə öz övladını Qarabağa göndərməyi tövsiyə edir və bu addımı təmas xəttində atəşkəsin bərpa olunmasının qarantı kimi göstərməyə çalışır. Digər tərəfdən də Paşinyanın həyat yoldaşı Azərbaycan qadınlarına çağırış edərək münaqişənin dayandırılması və əsgər ölümlərinə son qoyulması üçün səy göstərmələrini istəyir. Amma baş nazir olan həyat yoldaşından soruşmur ki, axı Ermənistan vətəndaşı "müstəqil DQR-də" niyə ölməlidir?

Paşinyan hakimiyyətinin məntiqsizliyi və ziddiyyəti o qədər dərindir ki, bunu xüsusi təhlil etməyə lüzum da qalmır. Lakin anlaşılmayan özünü azərbaycanlı adlandıran bəzi bədxahların Paşinyanın səsinə səs verməsi, erməni dəyirmanına su tökməsidir. Xüsusilə də xaricə qaçmış bir çox antimilli insanların hərəkəti bəzən bütün əndazələri aşır. Bunlar gör Azərbaycana və onun dövlət simvollarına nə qədər saygısız münasibət bəsləyir ki, hətta Ermənistan baş nazirinin ailə üzvləri ilə bağlı populist addımlarını belə az qala "qəhrəmanlıq" nümunəsi kimi qələmə verir və Azərbaycan hakimiyyətini hədəf götürürlər?!

Azərbaycan Prezidentinin övladının hərbi xidmətə getməsi bütün cəmiyyət, gənclərimiz üçün bir örnəkdir. Bu gün doğma torpağı harada müdafiə etmək lazımdırsa, Heydər Əliyev orada da olacaq və ləyaqətlə, şərəflə Vətən qarşısında öz borcunu ödəyəcək. Buna heç kimin şübhəsi olmasın. Mövzunu manipulyasiya obyektinə çevirənlər isə fərari kimi xaricə üz tutanlar, özlərini Vətən təəssübkeşi kimi qələmə verib övladlarını hərbi xidmətdən yayındıranlardır. Mən əvvəllər paylaşdığım statuslardan birində ifadə etdiyim bir fikri yenə də təkrar edirəm: bu gün Azərbaycan dövlətinə və onun simvollarına, hakimiyyət nümayəndələrinə, cəmiyyət üzvlərinə qarşı qeyri-əxlaqi yollarla mübarizə aparıb çirkab yağdıranlar xarici ölkələrin müvafiq orqanları qarşısında xüsusi öhdəlik götürmüş ünsürlərdir. Beləlıəri Azərbaycanın sərhədlərini keçdikdən sonra pasportlarını bəlli dairələrə təhvil verib xüsusi öhdəliklər götürür və sonra da öz dövlətlərinə qarşı çirkin mübarizəyə sövq edilirlər. Görünür onlar üçün Qərb ölkələrinə sığınıb soroslar, gülbekyanlar, karapetyanların pulu ilə öz dövlətinə hücum çəkmək əlinə silah götürüb Vətəni müdafiə etməkdən daha şərəfli işdir. Sosial şəbəkələrdə gecə-gündüz məsuliyyətsiz və iyrənc statuslar paylaşmaqla populyarlıq qazanacaqlarını zənn edənlər, Paşinyanın oğlunun hərbi xidmət piarından belə öz mənafeləri üçün yararlanmağı məqbul hesab edənlər bu yolla Azərbaycan cəmiyyətinin nifrətini qazanacaqlarına da şübhə etməməlidirlər.

Zaman hər kəsə layiq olduğu yeri göstərib, göstərir və göstərəcəkdir.

**AZƏRTAC**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Biz - Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri milli-mənəvi dəyərlərimizin qorunmasına, multikulturalizm və tolerantlıq ənənələrinin möhkəmləndirilməsinə göstərdiyiniz qayğının əyani göstəricisi olan Azərbaycan İlahiyyat İnstitutunun yaradılması haqqında imzaladığınız Sərəncama görə Sizə dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk.

Dünyanın bir çox ölkəsində ksenofobiya, islamofobiya, antisemitizm, irqi ayrı-seçkiliyin tüğyan etdiyi bir dövrdə Azərbaycan müxtəlif millətlərin və dinlərin nümayəndələrinin qardaşlıq və həmrəylik şəraitində yaşadığı nadir dövlətlərdən biridir. Ölkəmizdəki bu tolerant mühitin yaradılması və inkişafı bilavasitə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər, həmçinin müstəqil Azərbaycanda möhkəm dayaqlara əsaslanan dövlət-din münasibətləri modelinin də əsasını qoymuşdur. Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra milli-mənəvi dəyərlərimizin qorunması, dini ibadət ocaqlarının bərpası və inşası Ulu Öndərin daim diqqətində olmuşdur.

Bu gün də Sizin müdrik rəhbərliyinizin nəticəsində ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədədir. Müstəqilliyimizi bərpa etdiyimiz dövrdə Azərbaycanda 17 məscid fəaliyyət göstərdiyi halda, bu gün ölkəmizdə iki min beş yüzədək məscid mövcuddur və bu ibadətgahların bir çoxunun bərpası və inşası dövlət tərəfindən həyata keçirilmişdir. Sizin müdrik siyasətiniz nəticəsində ölkəmizdə məscid, kilsə və sinaqoqların bərpasına və yenilərinin inşasına xüsusi diqqət yetirilir. Gəncədəki İmamzadə ziyarətgahı, Şamaxı Cümə məscidi, xüsusilə Qafqazın ən böyük ibadət ocağı olan Heydər məscidi başda olmaqla, bir çox ibadətgahın dövlət vəsaiti ilə bərpası və inşası Sizin dinə olan qayğı və diqqətinizin əyani göstəricisidir.

Müasir Azərbaycanın iqtisadi və hərbi gücü ilə yanaşı, mədəni gücü ilə də dünya ölkələri sırasında özünəməxsus yeri vardır. Sizin müdrik və uzaqgörən siyasətiniz nəticəsində bu gün bütün dünya Azərbaycanı multikulturalizmin və tolerantlığın mərkəzi kimi tanıyır. Dövlətimizin bu siyasətini dünyadakı böyük din mərkəzləri rəğbətlə qarşılayır. 2016-cı ili "Multikulturalizm İli" elan etməyiniz dünyada get-gedə rəvac tapmağa çalışan mono-kultural düşüncələrə layiqli cavabdır. Həmçinin imzaladığınız Sərəncamla 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi məzhəbçilik və təfriqəçilik ideyalarına qarşı İslam dünyasını vəhdətə səsləyən mühüm bir mesaj olmuşdur. Multikultural dəyərlərə sadiqlik baxımından dünyaya nümunə olan ölkəmiz, İslam həmrəyliyinə verdiyi önəm baxımından da müsəlman dünyası üçün örnəkdir. Təsadüfi deyildir ki, dünyada böyük nüfuz sahibi olan bir çox dini lider Azərbaycanın müxtəlif dinlərin və xalqların nümayəndələrinin sülh şəraitində yaşadığı ölkə olduğunu vurğulamış və bu birgəyaşayış ənənəsinin ölkəmizin haqlı olaraq fəxr edə biləcəyi dini dözümlülük və qarşılıqlı anlaşma sayəsində mümkün olduğunu bildirmişdir. Şübhəsiz ki, bütün bunlar Ulu Öndərin və Zati-alinizin ümumbəşəri dəyərlərə əsaslanan siyasətinin nəticəsində olmuşdur. Xalqımıza məxsus olan ali insani dəyərlərin dünyada təbliğində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri də danılmazdır.

Təəssüflə qeyd edirik ki, müasir dünyanın bir çox yerində dini dəyərləri istismar edən radikal qüvvələrin destruktiv fəaliyyətinə şahid oluruq. İnsanların ən müqəddəs duyğularından sui-istifadə edən belə qüvvələr din adı ilə müxtəlif mənfi hərəkətlərə yol verərək bir çox ölkəni xaosa sürükləməyə nail olmuşlar. Onların dünyanın müxtəlif guşələrində özlərinə sosial dayaq tapmalarında dini dəyərlərin insanlara düzgün çatdırılmamasının rolu danılmazdır. Bu baxımdan dünya dinlərini, o cümlədən İslamı, xristianlığı və yəhudiliyi elmi əsaslarla tədris edən təhsil müəssisələrinə ciddi ehtiyac vardır. Belə müəssisələrin mövcudluğu ali dini və bəşəri dəyərlərin insanlara çatdırılması, eləcə də dini fanatizmin və radikalizmin qarşısının alınması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasına dair imzaladığınız Sərəncam da məhz bu mərama xidmət edir. İnstitutun dinşünaslıq və islamşünaslıq sahələrindəki təhsil standartları, eləcə də bu müəssisədə dərin biliyə və yüksək intellektə malik olan, müxtəlif dillərdə sərbəst şəkildə mühazirə oxuya bilən alimlərin çalışması onu deməyə əsas verir ki, Azərbaycan İlahiyyat İnstitutu Sizin etimadınızı doğruldacaq, imzaladığınız Sərəncamda da qeyd olunduğu kimi, Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin edən elm ocağına çevriləcəkdir.

Möhtərəm cənab Prezident!

Sizi əmin etmək istərdik ki, Azərbaycan İlahiyyat İnstitutu istər İslam dini, istərsə də digər dünya dinlərini dərindən bilən, dövlətçiliyimizin keşiyində duran yüksək ixtisaslı dinşünas və islamşünas kadrlar hazırlayaraq təkcə ölkəmizdə deyil, bütün dünyada tanınan ali təhsil müəssisələrindən birinə çevriləcəkdir.

*Dərin hörmət və ehtiramla,*

**Şeyxülislam Allahşükür Paşazadə**
**Qafqaz Müsəlmanları İdarəsinin sədri**

**Aleksandr**
**Bakı və Azərbaycanın arxiyepiskopu**

**Milix Yevdayev**
**Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri**

**Aleksandr Şarovski**
**Avropa yəhudilərinin Bakı icmasının sədri**

**Robert Mobili**
**Alban-udi dini icmasının sədri**

# Azərbaycan-Cibuti parlamentlərarası əlaqələri müzakirə olunub

**Sentyabrın 19-da Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov Cibuti Respublikası Milli Assambleyasının sədri Məhəmməd Əli Humədin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, sədr Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçiriləcək tədbirdə iştirak etmək üçün ölkəmizə səfər etdiklərinə görə qonaqlara təşəkkürünü bildirib. Qeyd edilib ki, müstəqil Azərbaycan dost Cibuti ilə əlaqələrin inkişaf etdirilməsində maraqlıdır. Xalqlarımız eyni dini və mənəvi dəyərləri bölüşür. Münasibətlərimizin inkişafında siyasi iradənin olması əhəmiyyətli rol oynayır. Bu baxımdan, yüksək səviyyəli görüşlər, aparılan danışıqlar əməkdaşlığımızın gələcək inkişafı üçün yaxşı zəmin yaradır. İqtisadi sahədə əlaqələrimizin daha da dərinləşməsi günün tələbidir.

Sədr beynəlxalq təşkilatlarda nümayəndə heyətlərimizin görüşləri zamanı onları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsinin aparılmasını, hər iki ölkə parlamentində dostluq qruplarının fəaliyyət göstərməsini müsbət dəyərləndirib. Oqtay Əsədov Cibuti Milli Assambleyasında bu ilin fevralında Xocalı soyqırımına hüquqi-siyasi qiymət verən sənədin qəbul olunmasını yüksək dəyərləndirib. Buna görə Cibuti Milli Assambleyasının rəhbərliyinə və parlament üzvlərinə təşəkkürünü ifadə edib. Qeyd edilib ki, Dağlıq Qarabağ münaqişəsinin həllində bu ölkə həmişə Azərbaycanın mövqeyini dəstəkləyib, gələcəkdə də bu dəstəyə ümid edirik.



Səmimi qəbul üçün minnətdarlığını bildirən Cibuti Respublikası Milli Assambleyasının sədri Məhəmməd Əli Huməd Azərbaycan parlamentinin 100 illiyi münasibətilə Milli Məclisin sədrini və parlament üzvlərini təbrik edib. Bildirilib ki, Cibuti parlamenti Azərbaycanın qanunvericilik orqanı ilə əlaqələrin inkişafına böyük önəm verir. Siyasi sahədə münasibətlərimiz yüksələn xətlə inkişaf etməkdədir. Biz iqtisadi əlaqələrimizi də bu səviyyəyə qaldırmaq niyyətindəyik.

Söhbət zamanı tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclis sədrinin müavini Bahar Muradova, parlament Aparatının rəhbəri Səfa Mirzəyev, deputat Tahir Mirkişili və digər rəsmi şəxslər iştirak ediblər.

**AZƏRTAC**

# Misir nümayəndə heyəti Azərbaycandakı dini tolerantlığı yüksək qiymətləndirib

**Sentyabrın 19-da Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə Misir Ərəb Respublikası parlamentinin nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə QMİ sədri Azərbaycandakı dini tolerantlıqdan bəhs edib. O bildirib ki, ölkəmizdə müxtəlif dinlərə, məzhəblərə mənsub insanlar hər zaman əmin-amanlıq şəraitində yaşayıb və yaşayır. Bu cür tolerantlıq ənənəsinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndərin yaratdığı bu ənənə hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



QMİ sədri Azərbaycan-Misir əlaqələrindən də danışıb. O vurğulayıb ki, ölkəmizin 2017-ci ildə İslam həmrəyliyi ilə bağlı keçirdiyi konfranslarda Misirdən gələn elm və din xadimləri iştirak ediblər.

Misir Nümayəndələr Palatası sədrinin birinci müavini Mahmud Əhməd Şərif Azərbaycandakı dini tolerantlığın təqdirəlayiq olduğunu söyləyib. O, bugünkü görüşdə şeyxülislamla birlikdə müxtəlif dini icmaların nümayəndələrinin iştirak etməsinin bu tolerantlığın göstəricisi olduğunu bildirib.

Mahmud Əhməd Şərif rəhbərlik etdiyi Seyidlər Birliyinin fəaliyyəti haqqında məlumat verib.

Birliyin əsas işinin Misirdəki müxtəlif dinlər və millətlər arasında vəhdəti qoruyub saxlamaq olduğunu deyən parlamentin birinci vitse-spikeri qeyd edib ki, görülən işlərin nəticəsində ölkəsində sülh və əmin-amanlıq mövcuddur.

Nümayəndə heyətinin digər üzvləri Azərbaycanda gördükləri səmimiliyə və qonaqpərvərliyə görə minnətdarlıqlarını ifadə ediblər.

**AZƏRTAC**

# Ulu öndər Heydər Əliyevin yeni neft strategiyasının uğurları ölkəmizin iqtisadi gücünü və beynəlxalq nüfuzunu artırır

**“...Mən bu müqavilənin hazırlanmasında, imzalanmasında iştirak etdiyimə görə özümü çox xoşbəxt hiss edirəm. Üzərimə götürdüyüm məsuliyyəti dərk edirəm və ümidvaram ki, gələcək nəsillər bu gün burada baş verən tarixi hadisəni layiqincə qiymətləndirəcəklər. ...Ən ümdəsi isə ondan ibarətdir ki, bu müqavilə Azərbaycan xalqının bu gününə, gələcəyinə böyük mənfəətlər verəcək, onun rifah halının yüksəlməsi üçün etibarlı və möhkəm zəmin yaradacaqdır”.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider.**



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 1994-cü ildə Bakıda “Əsrin müqaviləsi”nin bağlanması müstəqil Azərbaycanın iqtisadi həyatında dönüş nöqtəsi olub. Xəzərin Azərbaycan sektorunda yerləşən zəngin enerji ehtiyatlarının dünyanın aparıcı şirkətləri ilə birgə hasil edilərək dünya bazarlarına çıxarılması ölkəmizin iqtisadi müstəqilliyini təmin edib. Görünən budur ki, Azərbaycanın uğurlu neft strategiyası ölkəmizi regionun lider dövlətinə çevirib. Azərbaycan bütün sahələrdə çox sürətli inkişaf yolu keçib. Ölkəmizin iqtisadi qüdrəti artdıqca, dünya birliyində siyasi nüfuzu da yüksəlib. Bütün bunlar Azərbaycanın milli təhlükəsizliyinin güclənməsinə, xalqımızın rifahının daha da yaxşılaşmasına səbəb olub.

Azərbaycanın iqtisadi müstəqilliyinin əsasını təşkil edən yeni neft strategiyasının uğurları ilbəil artır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış neft strategiyasının reallaşdırılmasından əldə olunan gəlirlər ölkəmizin maliyyə dayaqlarının getdikcə möhkəmlənməsinə səbəb olur. Bu da öz növbəsində iqtisadiyyatın şaxələndirilməsinə, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə imkan yaradır. Bütün bunlara baxmayaraq, neft-qaz sektoru hələ uzun illər Azərbaycan iqtisadiyyatının aparıcı sahəsi olaraq qalacaq.

Respublikamız möhtəşəm “Əsrin müqaviləsi”nin 24 illik təntənəsini böyük əhval-ruhiyyə ilə qeyd edir. 20 sentyabr 1994-cü il tarixindən böyük fəxrlə danışılmalı, ulu öndərimiz, müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin gərgin əməyini isə yüksək qiymətləndirməliyik.

Düz 24 il bundan əvvəl, 1994-cü il sentyabrın 20-də Bakıda, “Gülüstan” sarayında “Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın 11 tanınmış neft şirkəti arasında saziş imzalandı və həmin sənəd sonradan tariximizə “Əsrin müqaviləsi” kimi əbədi həkk olundu. Bu, Azərbaycan Respublikasının imza atdığı ilk beynəlxalq neft anlaşması idi və ilk gündən tarixi mahiyyətinə görə müstəqillik salnaməmizdə öz layiqli yerini tutdu. Saziş xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanın nurlu sabahına işıq saçan neft strategiyasının əzəmətli təntənəsinin başlanğıc nöqtəsi oldu.

Mübaliğəsiz demək olar ki, keşməkeşli Azərbaycan tarixində “Əsrin müqaviləsi” qədər xalqın mənafeyinə uyğun taleyüklü rəsmi sənəd imzalanmayıb. Bu gün isə “Əsrin müqaviləsi”nin nəticələri hər bir Azərbaycan vətəndaşının həyatında hiss olunur. Respublikamızın iqtisadi həyatında isə böyük canlanma, irəliləyiş, dirçəliş getdikcə yüksəlir. Ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəmizin neft strategiyasının reallaşması qısa müddətdə müstəqil Azərbaycanda demokratik cəmiyyət quruculuğu istiqamətində dünyəvi islahatların uğurla həyata keçirilməsinə münbit zəmin yaratdı.

“Əsrin müqaviləsi” Azərbaycanın müstəqil dövlət kimi öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını müdafiə etmək əzmində olduğunu təsdiqlədi. Qlobal layihələrin gerçəkləşdirilməsi üçün müsbət təmayül yarandı, Azərbaycanın Qərb dünyası ilə münasibətləri strateji müstəvi üzərinə keçdi. Bu gün artıq Azərbaycan regionun lider dövləti kimi beynəlxalq birliyin əsas partnyorudur. “Əsrin müqaviləsi” ilə əsası qoyulmuş yeni neft strategiyası ölkəmizə iqtisadi səmərə gətirməklə bərabər, həm də mühüm geosiyasi amildir.

1997-ci ildə “Çıraq” yatağında neft hasilatına başlanılması ilə neft strategiyasının uğurlarının başlanğıcı qoyuldu, “Əsrin müqaviləsi” çərçivəsində istehsal obyektlərinin beynəlxalq standartlara uyğun qurulmasına başlandı. Neftin hasil olunması “qara qızıl” ixrac etmək, onu dünya bazarlarına çıxarmaq məsələsini gündəmə gətirirdi. 1996-cı ilin yanvarında Azərbaycan neftinin Bakı-Novorossiysk marşrutu ilə nəql edilməsi haqqında Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hökumətlərarası saziş imzalandı. 1997-ci ilin oktyabrında həmin xətt istifadəyə verildi. Lakin hasil olunacaq böyük neft həcmləri ilə müqayisədə bu kəmərin ötürücülük qabiliyyəti məhdud idi. 1997-ci ildə neftin Bakı-Supsa marşrutu ilə Qara dənizə çıxarılması haqqında-Azərbaycanla Gürcüstan arasında sazişin imzalanması mühüm hadisə oldu. 1999-cu ildə isə Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi. Beləliklə də bir əsrə yaxın fasilədən sonra ilk dəfə olaraq Azərbaycan nefti Şimala deyil, Qərbə istiqamət götürdü. Bununla belə, neft hasilatının artımı əsas ixrac boru kəmərinin qısa zamanda inşa olunmasını labüd edirdi. Belə olan halda Azərbaycan xalqının maraqlarını daim hər şeydən uca tutan ulu öndər Heydər Əliyev Bakı-Tbilisi-Ceyhan ideyasını irəli sürdü.

2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına nəql olundu. Gerçəklik növbəti dəfə ulu öndər Heydər Əliyevin uzaqgörənliyini, onun siyasi, iqtisadi və digər risklərin dəqiq hesablanmış balansı və Azərbaycanın uzunmüddətli strateji maraqları üzərində qurduğu çoxvariantlı ixrac strategiyasının əsaslı olduğunu bütün dünyaya sübut etdi və xarici tərəfdaşların təşəbbüsü ilə bu kəmərə ulu öndər Heydər Əliyevin adı verildi. Hər kəs yaxşı bilir ki, Azərbaycan qədim neft ölkəsidir. İlk dəfə olaraq dünyada sənaye üsulu ilə neft məhz Azərbaycanda çıxarılmışdır. Həmçinin dünyada dənizdə neft də ilk dəfə ölkəmizin neftçiləri tərəfindən hasil edilmişdir.

Ulu öndərimiz Heydər Əliyevin müəllifi olduğu neft strategiyası bu gün müstəqil dövlət kimi Azərbaycanın öz milli sərvətinin sahibi olmasının, iqtisadiyyatımızın dünya iqtisadiyyatına inteqrasiyasının və ən əsası, XXI əsrdə yüksək inkişaf etmiş, möhkəm, demokratik Azərbaycan dövlətinin yaranmasının rəmzinə çevrilmişdir. İqtisadi qüdrətimiz artdıqca, Azərbaycan günü-gündən çiçəklənir, abadlaşır, şəhərlərimiz, qəsəbə və kəndlərimiz öz simasını tamamilə dəyişib yeniləşir, infrastruktur layihələri, regional proqramlar müvəffəqiyyətlə həyata keçirilir. Dövlət başçımız cənab İlham Əliyev əməli fəaliyyəti ilə ümummilli liderin Azərbaycan dövlətinin və müstəqilliyimizin möhkəmlənməsinə, xalqımızın rifah halının daha da yüksəlməsinə xidmət edən siyasi xəttini uğurla aparır və ölkəmiz də daha işıqlı və firavan gələcəyə doğru inamla addımlayır. Bu parlaq nailiyyətlər isə heç də əziyyətsiz qazanılmamışdır. Mübaliğəsiz demək olar ki, ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurla həyata keçirilməsi Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasına gətirib çıxarmışdır. Hazırda Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu getdikcə artır. Bu da, öz növbəsində, ölkəmizin beynəlxalq arenada nüfuzunun daha da yüksəlməsinə güclü təsir göstərir.

Beynəlxalq aləmdə “Əsrin müqaviləsi” kimi tanınan bu dünya əhəmiyyətli irimiqyaslı saziş müasir tariximizə qızıl hərflərlə həkk olunub. Azərbaycanın neft sənayesi ötən dövr ərzində görünməmiş tərəqqi dövrü keçmişdir. Xarici şirkətlərlə imzalanmış neft-qaz müqavilələri ölkə iqtisadiyyatının bütün sahələrinin, habelə sosial infrastruktur obyektlərinin inkişafına əsaslı təkan vermişdir. Belə ki, ötən müddət ərzində bir çox irimiqyaslı layihələr həyata keçirilmiş, neft-qaz hasilatında yüksək göstəricilərə nail olunmuşdur. “Əsrin müqaviləsi” Azərbaycan neft sənayesinin dönüş nöqtəsi və yenicə müstəqilliyini bərpa etmiş respublikamızda neft strategiyasının həyata keçirilməsinin başlanğıcı hesab edilir. Bu beynəlxalq neft layihəsinin ölkəmizin dövlət müstəqilliyinin qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna əhəmiyyəti oldu. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin davamlı iqtisadi yüksəlişə güclü təkan vermiş yeni neft strategiyası möhkəm elmi əsaslar üzərində qurulmuşdur. “Əsrin müqaviləsi” təkcə ölkəmiz üçün deyil, ümumilikdə beynəlxalq aləmlə enerji təhlükəsizliyi sistemi və neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən dövlətlər üçün müstəsna əhəmiyyət kəsb edən bir layihədir.

Məlum olduğu kimi, ötən il sentyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması mərasimi keçirilib. Sazişlə bağlı təfərrüatlara keçməmişdən öncə qeyd etmək lazımdır ki, məhz indiki şəraitdə Azərbaycanın bu sahədə əldə etdiyi nailiyyətlərin əsasında duran başlıca amil ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu uğurlu enerji siyasətidir. Bu isə, şübhəsiz ki, “Əsrin müqaviləsi”ndən başlayır. Yəni, sirr deyil ki, karbohidrogen ehtiyatları ilə zəngin olan Xəzər hövzəsində beynəlxalq əməkdaşlığın təməli Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzaqgörənliyi ilə 1994-cü il sentyabrın 20-də imzalanan “Əsrin müqaviləsi” ilə qoyulub. Məlum olduğu kimi, 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi rəhbərliyinə qayıdan umummilli lider Heydər Əliyev ölkəmizin uzunmüddətli inkişafına və rifahına hesablanan yeni neft strategiyasını hazırladı. Bununla da Xəzər xoşməramlı beynəlxalq əməkdaşlıq mərkəzinə çevrildi. Beləliklə, ümummilli lider Heydər Əliyevin müəllifi olduğu Azərbaycanın neft strategiyasının reallaşdırılması nəticəsində dünyanın aparıcı enerji şirkətləri Xəzər dənizinin Azərbaycan milli sektorunda karbohidrogen ehtiyatlarının hasilatı və nəqlinə cəlb olunub, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında yeni etibarlı mənbə rolunu oynamağa başlayıb. Yeni şərtlər Azərbaycan üçün daha da əlverişlidir.

Hazırda isə yenilənmiş “Azəri-Çıraq-Günəşli” Sazişi birmənalı şəkildə yeni əsrin müqaviləsi kimi xarakterizə edilir. Belə ki, “Azəri-Çıraq-Günəşli” neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadılır. Beləliklə, Prezident İlham Əliyevin sözügedən Sazişin imzalanması mərasimindəki çıxışında bəyan etdiyi kimi, “Azəri-Çıraq-Günəşli” nəhəng neft yatağının işlənilməsində yeni dövr başlayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bəhs olunan çıxışı zamanı onu da diqqətə çatdırıb ki, əsas şərtlər artıq göstərir ki, Azərbaycanın gələcək inkişafı, maliyyə imkanlarımızın genişləndirilməsi üçün bu kontraktın çox böyük əhəmiyyəti var.

Yeri gəlmişkən, “Azəri”, “Çıraq” və dərinsulu “Günəşli” (AÇG) üzrə dəyişdirilmiş və yenidən işlənmiş hasilatın pay bölgüsü sazişi təsdiqləndikdən sonra tərəfdaşların yeni iştirak paylarına nəzər saldıqda bəlli olur ki, SOCAR-ın AÇG-dəki payı iki dəfədən çox artıb. Yeni sazişin bir hissəsi olaraq SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə qaldırılır və beynəlxalq tərəfdaş şirkətlər Azərbaycan Respublikası Dövlət Neft Fonduna (ARDNF) 3,6 milyard dollar bonus ödəyəcəklər. Növbəti 32 il müddətində AÇG-yə 40 milyard dollardan çox sərmayə qoyulması potensialı var. Göründüyü kimi, yeni şərtlər Azərbaycan üçün daha da əlverişlidir.

Əsaslı ictimai-siyasi sabitliyə və yüksək beynəlxalq nüfuza malik olan Azərbaycan etibarlı tərəfdaş kimi qəbul edilir. Əlbəttə, aparıcı beynəlxalq şirkətlərin, eləcə də digər tərəfdaşların Azərbaycanla əməkdaşlığı inkişaf etdirmək niyyətində olması, hər şeydən əvvəl, ölkəmizin daxili və xarici siyasət kursunun səmərəliliyinin qanunauyğun nəticəsidir. Xüsusilə də, sabitlik adası kimi səciyyələndirilən Azərbaycanda etibarlı təhlükəsizlik mühitinin mövcudluğu ölkəmizin beynəlxalq nüfuzunu artıran başlıca amillərdəndir. Ötən müddət ərzində çoxsaylı siyasi kataklizmlərlə müşayiət olunan, müxtəlif ölkələrdə stabillik və təhlükəsizliyin pozulduğu şəraitdə Azərbaycanda sabitlik qorunub saxlanıb, ölkəmiz kənar təsirlərə məruz qalmadan öz siyasi istiqrarını davam etdirib.

Azərbaycanda möhkəm ictimai-siyasi sabitliyi təmin edən başlıca amillərdən biri məhz müstəqil siyasət kursunun həyata keçirilməsidir. Bu gün Azərbaycanın daxili və xarici siyasəti məhz müstəqillik prinsipinə əsaslanır, milli maraqların qorunmasına xidmət edir. Respublikamız xarici siyasi əlaqələrini, siyasi, iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir. Azərbaycan öz təbii sərvətlərinin sahibi kimi, enerji sahəsində əməkdaşlıq əlaqələrini dövlət maraqları və qarşılıqlı faydalılıq prinsipləri əsasında reallaşdırır. Bunun nəticəsidir ki, ölkəmizin beynəlxalq mövqeyi mütəmadi olaraq möhkəmlənir.

Neft strategiyası, onun ölkəmizin inkişafında tarixi rolu haqqında danışarkən, ulu öndərin təşəbbüsü və qətiyyəti sayəsində yaradılmış Neft Fondunun fəaliyyətini qeyd etməmək mümkün deyil. Azərbaycanın ən böyük sərvəti olan neftin xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubluğunu bildirən ümummilli lider tarixi qərar qəbul edərək 29 dekabr 1999-cu ildə “Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında” fərman verdi. Fondun yaradılması fəlsəfəsinin əsasını neft sərvətlərinin nəsillər arasında ədalətli bölüşdürülməsinin təmin edilməsi təşkil edirdi. Belə ki, Neft Fondu bu gün neft sazişlərinin həyata keçirilməsi ilə əlaqədar əldə edilən gəlirlərin toplanması və səmərəli idarə edilməsinin ən effektiv mexanizminə çevrilib. Ulu öndərin sərəncamı ilə Dövlət Neft Fondundan ilk ayrılmış vəsait ən ağır sosial vəziyyətdə olan soydaşlarımıza, qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldilib.

Ölkə Prezidenti İlham Əliyev demişdir ki, Neft Fondunun yaradılması neft strategiyamızın vacib elementlərindən biri olmuşdur: **“Neftin satışından gəlirlər əldə etməyə başladıqdan dərhal sonra Neft Fondu təsis edilmişdir. Fond çox müasir və şəffaf quruluşa malikdir və onun fəaliyyəti və gəlirləri haqqında məlumatlar müntəzəm olaraq dərc edilir. Bu, çox vacib bir məsələdir, belə ki, uğur qazanmaq, ölkəni inkişaf etdirmək və gəlirlərdən lazımi qaydada istifadə etmək üçün maksimum dərəcədə şəffaflığın təmin edilməsi zəruridir”.**

Dünya təcrübəsi göstərir ki, neft və qazla zəngin ölkələrin heç də hamısı bu ehtiyatları səmərəli istifadəyə və inkişafa yönəltmək iqtidarında deyil. Bu səbəbdən təsadüfi deyil ki, enerji ehtiyatları ilə zəngin ölkələrin bu resurslardan istifadə səmərəliliyi üzrə əmsalı fərqli göstəricilərə malikdir. Prezidentimiz cənab İlham Əliyev tərəfindən ölkəmizdə bu sahədə həyata keçirilən siyasət isə Azərbaycanı enerji resurslarının reallaşması nəticəsində əldə olunan gəlirlərin istifadə səmərəliliyi baxımından birincilər sırasına çıxarıb. Bunun nəticəsidir ki, ölkənin sosial-iqtisadi tərəqqi göstəriciləri daim dinamik xarakterə malikdir, Azərbaycan modern inkişaf yoluna çıxıb, müasir tələblərə cavab verən iqtisadiyyat qurub, infrastruktur formalaşdırıb, iqtisadi sahədə keçid dövrünü müvəffəqiyyətlə başa vurub, strateji valyuta ehtiyatlarının həcmini ildən-ilə artırıb və bu qəbildən olan digər möhtəşəm nailiyyətlərə imza atıb.

Bu gün “Əsrin müqaviləsi” Azərbaycan qarşısında yeni imkanlar, yeni üfüqlər açmışdır. Odur ki, bu müqavilənin çox böyük tarixi əhəmiyyəti vardır. Ötən 24 il ərzində Azərbaycanın milli maraqları tam şəkildə təmin olunmuşdur. Azərbaycan Respublikası bu kontraktın icrası nəticəsində böyük və uğurlu yol keçmişdir. Müstəqil respublikamız son illər iqtisadi cəhətdən daha da güclənib, dünya birliyinin lider dövlətlərindən birinə çevrilib. Bütün bunlar isə Azərbaycana böyük siyasi və iqtisadi dividendlər gətirən ümummilli liderimiz Heydər Əliyevin uzaqgörənliklə, zərgər dəqiqliyi ilə işləyib hazırladığı, müəllifi olduğu yeni neft strategiyasından, “Əsrin müqaviləsi”ndən qaynaqlanır. Göründüyü kimi, güclü, qüdrətli Azərbaycan quruculuğu yolunda davam etdirilən qlobal neft-qaz və nəqliyyat layihələri, dövlət proqramları da ən ümdə məqsədə - ölkəmizin iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun artmasına xidmət edir. Bu isə onu deməyə əsas verir ki, Azərbaycan dövlətinin iqtisadi qüdrəti bundan sonra da artacaq, iqtisadiyyat sürətlə inkişaf edəcək, xalqımızın maddi rifah halı bir qədər də yaxşılaşacaqdır.

Ölkəmizdə gündən-günə vüsət alan, məramı xalqımızın rifah halının daha yüksəlməsi, Azərbaycanın inkişaf etmiş ölkələr sırasında layiqli yerinin təmin edilməsi olan genişmiqyaslı quruculuq işləri Heydər Əliyev neft strategiyasının dünənki, bugünkü və gələcək təntənələrinin bariz nümunəsidir. “Əsrin müqaviləsi” ilə əsası qoyulmuş milli neft strategiyasının uğurlarının nəticəsi olaraq Azərbaycanın regionun lider dövləti, eləcə də regional və qlobal iqtisadi layihələrin aparıcı iştirakçılarından biri kimi tanınmasına şərait yaranmışdır. Bu gün ölkəmizdə əldə edilən bütün iqtisadi uğurların başlanğıcında məhz milli neft strategiyası, bu strategiyanın ilk şanlı səhifəsini və təməl daşını isə ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu “Əsrin müqaviləsi” təşkil edir.

Bütün bunlar deməyə əsas verir ki, həm ulu öndərin təşəbbüsü və təşkilatçılığı ilə 24 il əvvəl imzalanan “Əsrin müqaviləsi”, həm də Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən il imzalanan yeni “Əsrin müqaviləsi” Azərbaycan xalqının rifah halının yüksəlməsinə, dövlətimizin beynəlxalq nüfuzunun və siyasi mövqelərinin möhkəmlənməsinə xidmət edir.

**Nəsib MƏHƏMMƏLİYEV,**
**Milli Məclisin deputatı.**

# Azərbaycan neftçiləri peşə bayramlarını qeyd edib



**Azərbaycan neftçiləri peşə bayramlarını qeyd edib.**

AZƏRTAC xəbər verir ki, sentyabrın 19-da “Əsrin müqaviləsi”nin imzalanmasının ildönümü və Azərbaycan neft-qaz sənayesi işçilərinin peşə bayramı - “Neftçilər günü” ərəfəsində SOCAR-ın rəhbərliyinin nümayəndələri və çoxminli kollektivinin təmsilçiləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyub.

Həmin gün SOCAR-ın baş ofisində “Azərbaycan nefti” ekspozisiyasının açılışı olub. Mərasimdə SOCAR-ın prezidenti Rövnəq Abdullayev, energetika naziri Pərviz Şahbazov, BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz, SOCAR və BP şirkətlərinin rəhbərliyi və qabaqcıl neftçilər iştirak edib. Ekspozisiyada Azərbaycan neftinin qədim tarixi və ölkəmizin neft-qaz sənayesinin şanlı inkişaf mərhələləri, həmçinin son illərdə əldə edilmiş nailiyyətlər öz əksini tapıb. Aparıcı sahələr barədə verilən əyani məlumatlar, istifadə olunan interaktiv görüntülər və maketlər sərgiyə böyük maraq doğurur.

20 sentyabr - “Neftçilər günü”nə həsr olunan təntənəli mərasimdə əvvəlcə “Neftçilər günü”nə, SOCAR-ın fəaliyyətinə və son illərdə neft-qaz sənayesində əldə edilmiş nailiyyətlərə həsr olunmuş videoçarx nümayiş edilib.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev bütün neftçiləri peşə bayramı günü münasibətilə təbrik edərək deyib: “Yüksəkixtisaslı, zəhmətkeş neftçilər bizim ən qiymətli xəzinəmizdir. Məhz fədakar neftçi əməyinin sayəsində SOCAR ilbəil böyüyür, genişlənir. Biznes portfelini şaxələndirmək, hər hansı bir sahə və ya məhsuldan asılılığı minimuma endirmək məqsədilə 2008-ci ildən etibarən müxtəlif sahələrə yatırdığımız investisiyalar artıq öz bəhrəsini verməkdədir. Qarşıda bizi yeni üfüqlər, böyük perspektivlər gözləyir”.



Energetika naziri Pərviz Şahbazov bildirib: “Azərbaycanın neft sənayesinin qədim tarixini, enerji ölkəsi kimi qlobal əhəmiyyətini əks etdirən bu simvolik gün xalqımızın ümummilli lideri Heydər Əliyevin neftçilərimizin şərəfli əməyinə verdiyi yüksək qiymətin təcəssümüdür. 1994-cü ilin sentyabrın 20-də “Əsrin müqaviləsi”nin imzalanması ilə Azərbaycan öz nefti ilə yeni status qazanaraq, uzaqgörənliklə gələcək enerji siyasətinin konturlarını müəyyənləşdirmiş oldu”.

“Hələ 1996-cı ildə Heydər Əliyev görüşlərinin birində demişdir ki, 1994-cü ilin sentyabrında imzalanmış müqavilə 30 il üçün nəzərdə tutulub. Əminəm ki, əməli işimiz bu müqavilənin müddətini uzadacaq. Çünki yeni imkanlar meydana çıxacaq. Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində ölkəmizin “Əsrin müqaviləsi”nin müddətinin 2050-ci ilədək uzadılmasına nail olması Ulu Öndərin bu müdrik gözləntilərini doğrultdu və dövlətimizin nə qədər aydın yolda olduğunu göstərdi”, - deyə nazir əlavə edib.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz deyib: “Son 20 ildən artıq bir müddət ərzində Azərbaycanın inkişafı, burada yaradılmış dünya səviyyəli enerji infrastrukturu və miqyasca bərabəri olmayan neft və qaz layihələri bu ölkəni iri bir beynəlxalq enerji mərkəzinə çevirib. Bu layihələrin əsas qəhrəmanları, əlbəttə ki, ölkənin çoxsaylı neftçiləridir. “Neftçilər günü”nü qeyd etməklə biz onların fədakar əməyinə və böyük nailiyyətlərinə dəyər veririk. Onlar hamımızın dərin hörmətinə və sevgisinə layiqdirlər. Onlar Azərbaycanın yeni nəsil neftçilərinə daim nümunə olacaqlar və gənc nəsil məhz onlara bənzəməyə can atmalıdır”.

Daha sonra 2017-ci ilin yekunlarına görə əsas peşələr üzrə “İlin ən yaxşısı” nominasiyası qaliblərinə mükafatlar təqdim edilib.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 16 avqust tarixli Sərəncamına əsasən hər il sentyabrın 20-si Azərbaycan Respublikasında “Neftçilər günü” peşə bayramı kimi qeyd olunur.

**AZƏRTAC**

# Azərbaycan dövlətçiliyində və ali təhsilində böyük xidmətləri olan görkəmli dövlət xadimi, tanınmış alim-pedaqoq

**Görkəmli dövlət xadimi, ictimai-siyasi xadim, tanınmış alim, hüquq elmləri doktoru, professor Murtuz Nəcəf oğlu Ələsgərovun həyatı və elmi fəaliyyəti haqqında yazmaq mənim nəinki bir vətəndaş kimi, eyni zamanda, daim müəllimim olmuş bir şəxsiyyət qarşısında borcumdur.**

Murtuz Ələsgərov 1928-ci il sentyabrın 20-də Gəncə şəhərində zəhmətkeş bir ailədə anadan olmuşdur. Hələ gənc ikən atasını itirmiş Murtuz müəllim 1934-cü ildə Gəncə şəhərindəki 28 nömrəli orta məktəbin birinci sinfinə getmiş, İkinci Dünya Müharibəsinin ağır illərində -1944-cü ildə həmin məktəbi fərqlənmə attestatı ilə bitirmişdir. Orta məktəbdə oxuyarkən hüquqşünas olmaq arzusu ilə 1945-ci ildə Azərbaycan Dövlət Universitetinin (hazırkı Bakı Dövlət Universiteti) Hüquq fakültəsinə daxil olmuşdur.

1950-ci ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirdikdən sonra Murtuz müəllim hüquq elmi sahəsində elmi tədqiqatlar məqsədilə Moskvada SSRİ Elmlər Akademiyasının Dövlət və Hüquq İnstitutunun əyani aspiranturasına daxil olaraq beynəlxalq hüquq sahəsində elmi araşdırmalara başlayır. Murtuz Ələsgərovun elmi rəhbəri o vaxtlar İttifaq çərçivəsində çox tanınmış alim, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, Haaqa Üçlər Məhkəməsi Daimi Palatasının üzvü, hüquq elmləri doktoru, professor Y.A.Korovin idi. Qısa vaxt ərzində və o dövrlər İttifaq çərçivəsində Beynəlxalq hüquq sahəsində ermənilərin təsir dairəsinə və maneçiliklərə baxmayaraq, 1954-cü ildə Beynəlxalq hüquq sahəsində namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək hüquq elmləri namizədi elmi dərəcəsini almışdır. O, Beynəlxalq hüquq sahəsində ilk elmlər namizədi olmuş azərbaycanlıdır. Azərbaycanda o dövrlər beynəlxalq hüquq, o cümlədən konstitusiya hüququ sahəsində milli mütəxəssislər demək olar ki, yox idi. Bu sahədə milli kadrların hazırlanması məqsədilə, o cümlədən vətəninə ciddi bağlılıq onu dissertasiya işinin müdafiəsindən sonra yenidən Azərbaycana gətirir. Buna görə də 1954-cü ildə Murtuz müəllim doğma universitetə qayıtmış, Dövlət hüququ kafedrasında baş müəllim kimi fəaliyyətə başlamışdır. 1956-cı ildən Dövlət hüququ kafedrasında (hazırda Konstitusiya hüququ kafedrası) dosent vəzifəsində çalışmışdır. Murtuz müəllim 1957-ci ildə 29 yaşında Azərbaycan Dövlət Universitetinin Beynəlxalq hüquq kafedrasının müdiri vəzifəsinə seçilir, 8 il bu vəzifədə işləyir, 1965-ci ildə isə Dövlət hüququ kafedrasına müdir seçilir və ömrünün sonuna qədər - 48 ilə yaxın müddətdə bu kafedraya rəhbərlik edir. Təsəvvür edin ki, Murtuz müəllim Beynəlxalq hüquq kafedrasında müəllim kimi fəaliyyətə başlayanda, həmin kafedranın müdiri erməni N.M.Minasyan, ətrafındakılar isə qeyri-azərbaycanlılar idi. O dövrlər qatı şovinist N.M.Minasyan Azərbaycanda beynəlxalq hüququn tədrisinə necə münasibət bəsləyə bilərdi? Murtuz müəllimin bilavasitə səyi ilə N.M.Minasyan vəzifəsindən uzaqlaşdırılır. Murtuz Ələsgərov isə həmin kafedraya rəhbərlik etməyə başlayır. Beynəlxalq hüquq sahəsində milliləşməyə nail olandan və həmin sahəni ayağa qaldırandan sonra Dövlət hüququ kafedrasını yenidən formalaşdırır və rəhbərlik edir. Beləliklə, Murtuz Ələsgərovun Azərbaycan hüquq elminin yaradıcısı olması onun gənclik illərindən başlamaqla, əsl azərbaycanlı kimi vətənpərvərliyi və xüsusi istedadı ilə seçilir.

1950-1960-cı illərdə Murtuz Ələsgərov Azərbaycan televiziyasının beynəlxalq məsələlər üzrə rəğbətlə qarşılanan şərhçisi kimi fəaliyyət göstərmiş, "Qitələr və hadisələr", "Planetimizin mənzərəsi" proqramlarının yaradıcısı və aparıcısı kimi tanınmışdır. Beləliklə, artıq 1960-1970-ci illərdə Murtuz Ələsgərovun ictimai-siyasi həyatda, elm aləmində böyük nüfuzu və özünəməxsus xüsusi dəst-xətti vardı.

Murtuz Ələsgərov 1968-ci ildə "Asiya və Afrika gənc müstəqil dövlətləri ilə SSRİ-nin beynəlxalq hüquqi münasibətləri" mövzusunda doktorluq dissertasiyası işini uğurla müdafiə edərək hüquq elmləri doktoru elmi dərəcəsi almışdır. 1969-cu ildə isə ona Beynəlxalq hüquq ixtisası üzrə professor elmi adı verilmişdir. Murtuz müəllim o dövrlər gənc milli alimlərin kafedraya cəlb edilməsi istiqamətində dayanmadan çalışır, onların elmi nəşrlərinin nəinki İttifaq, həmçinin xarici dövlətlər çərçivəsində çap edilməsinə ciddi yardım göstərirdi. 1970-ci illərin əvvəllərində onun rəhbərliyi ilə kafedrada "Dövlət, idarəçilik və hüququn inkişaf qanunauyğunluqları", "Müasir beynəlxalq hüququn ümumi problemləri" və s. istiqamətində ciddi elmi araşdırmalar aparılırdı.

Murtuz müəllim 1970-ci ildən Azərbaycan Respublikası Prokurorluğunun, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin elmi məsləhət şuralarının üzvü olmuşdur. 1960-cı ildən Beynəlxalq Hüquq Assosiasiyasının üzvü olan Murtuz Ələsgərov nəinki SSRİ çərçivəsində, həmçinin xaricdə də ciddi hüquqşünas alim kimi qəbul edilirdi. Hətta o dövrdə SSRİ ilə heç də yaxşı münasibətləri olmayan xarici dövlətlərdə keçirilən beynəlxalq konfranslarda aktual mövzularla çıxış edirdi. Belə ki, 1961-ci ildə Fransada keçirilən beynəlxalq konfransda "Azərbaycanda hüquq elminin nailiyyətləri", 1976-cı ildə ABŞ-da keçirilən beynəlxalq konfransda "Azərbaycan Respublikasında ətraf mühitin qorunması qanunları", 1978-ci ildə Böyük Britaniyada "İnsan hüquqları və azadlıqlarının beynəlxalq hüquqda tanınması", 1984-cü ildə Yaponiyada keçirilən beynəlxalq konfransda "Azərbaycan Respublikası vətəndaşlarının Konstitusiya hüquqları" mövzularında məruzələrlə çıxış etmişdir. Göründüyü kimi, Murtuz müəllimin o dövrlərdə hətta çətin olsa belə, məruzələri bilavasitə Azərbaycanla bağlı idi. Bu, Murtuz müəllimin Azərbaycanın gələcək müstəqilliyi ilə bağlı əsas hədəflərindən idi. Onun "Bərabərhüquqlu əməkdaşlıq", "Təbiət və qanun", "Asiya və Afrikanın gənc dövlətlərinin beynəlxalq hüquq subyektliliyi", "Konstitusiyanı gözləmək bütün vətəndaşların borcudur", "Milli dövlət quruluşu", "Dövlət orqanları", "Dövlət hüququ" adlı dərs vəsaiti, dərslik, monoqrafiyaları ciddi elmi bazaya malik idi. O, Azərbaycanın və Azərbaycan xalqının parlaq və müstəqil gələcəyinə inanan alimlərdən idi. Onun sovet dövründə yazdığı bütün əsərlərində bəzən aşkar, bəzən də gizli şəkildə Azərbaycan xalqının öz müqəddəratına, müstəqilliyinə inamı aydın görünür.

Murtuz müəllim 1966-cı ildən Azərbaycan Ensiklopediyasının tarix, fəlsəfə və hüquq redaksiyası elmi şurasının üzvü olmuş, Ensiklopediyanın ayrı-ayrı cildlərində onun 60-dan çox elmi məqaləsi çap olunmuşdur. 1982-ci ildə Moskvada çap olunmuş "SSRİ-nin milli dövlət quruluşu" monoqrafiyasında Azərbaycanın milli dövlət quruluşu bölməsinin müəllifi olmuşdur. Murtuz Ələsgərov 1980-ci ildə respublikanın Əməkdar hüquqşünası adına layiq görülmüşdür. O, respublikanın praktiki hüquq orqanları ilə daim sıx əlaqə saxlamış, qanun və digər hüquqi sənədlərin layihələrinin hazırlanmasında onlara yaxından kömək etmiş, Azərbaycan Respublikasının suverenliyi, vətəndaşlıq və mülkiyyət haqqında, seçki sistemi haqqında, Azərbaycan Respublikasının müstəqilliyi haqqında Konstitusiya aktının və bir sıra digər qanun layihələrinin müəlliflərindən biri olmuşdur. Murtuz müəllim həm də bilavasitə ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının hazırlanması üzrə Komissiyanın üzvü olmuş və çox dəyərli təkliflərlə çıxış etmişdir.

Beynəlxalq hüquq sahəsində görkəmli alim kimi tanınan professor Murtuz Ələsgərovun onlarla dərslik və monoqrafiyası ilə yanaşı, 200-dən çox elmi əsəri çap olunmuş, rəhbərliyi ilə 50-dən çox namizədlik dissertasiyası, 3 doktorluq dissertasiya işi müdafiə edilmişdir. Onların arasında 20-yə yaxını Çin, Vyetnam, İraq, İran, Banqladeş və digər Afrika-Asiya ölkələrindən olan xarici ölkə vətəndaşları idi.

1970-ci illərin əvvəllərindən Murtuz Ələsgərovun fəaliyyətində xüsusi dönüş nöqtəsi başladı. Belə ki, dahi şəxsiyyət olan Heydər Əliyevin 1969-cu il iyul ayından Azərbaycana rəhbər seçilməsi respublikamızın ictimai və mədəni həyatının bütün sahələri kimi, Azərbaycan Dövlət Universitetinin də həyatında köklü və müsbət dəyişikliklər yaratmışdır. Heydər Əliyevin böyük gücü hesabına Azərbaycanın bütün elm, təhsil və mədəniyyət ocaqlarında vəziyyət sürətlə müsbət istiqamətdə dəyişməyə, Azərbaycan alimlərinin və elm-təhsil müəssisələrinin beynəlxalq əlaqələri genişlənməyə başlanmışdır. Qeyd etmək lazımdır ki, Azərbaycan Dövlət Universitetinin əsas istiqamətlərindən biri də hüquq təhsili idi və o dövrdə Azərbaycanda hüquq təhsili ancaq Azərbaycan Dövlət Universitetində həyata keçirilirdi. Bu istiqamətdə isə milli kadrlara ciddi ehtiyac duyulurdu ki, bu zaman da böyük savada və vətənpərvərliyə malik professor Murtuz Ələsgərova daha böyük istinadlar edilirdi. Belə ki, respublika çərçivəsində məhz Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə 1970-ci il dekabr ayının 4-də qəbul edilmiş "Zəhmətkeşlərin hüquqi tərbiyəsini yaxşılaşdırmaq tədbirləri haqqında" qərarla ali və orta ixtisas məktəblərində hüququn əsaslarının tədrisi və öyrənilməsi işini yaxşılaşdırmaq, tədris müəssisələri vasitəsilə hüquqi biliklərin təbliğini gücləndirmək, qanunvericiliyin ən aktual məsələlərinin gənc nəslə öyrədilməsinə və izah olunmasına, hüquq qaydalarının möhkəmləndirilməsinə yönəldilən tədbirlərin işlənib hazırlanması və s. kimi məsələlər nəzərdə tutulmuşdur. O dövrdə Hüquq fakültəsinin kollektivi məhz Heydər Əliyevin birbaşa göstərişi ilə bu proseslərə fəal cəlb edilməyə başlanmış, Hüquq fakültəsi ilə hüquq-mühafizə orqanlarının əməkdaşlıq əlaqələri daha sıx olaraq qurulmağa başlanılmışdır. 1971-ci ildə Universitetdə məhz Hüquq fakültəsinin yardımı ilə ictimai əsaslarla işləyən Hüquq məsləhətxanası açılmışdır. Bu dövrdən başlayaraq professor Murtuz Ələsgərov da başda olmaqla Hüquq fakültəsinin müəllim heyəti respublikanın şəhər və rayonlarına davamlı olaraq ezam olunmağa başlanıldı. 1974-cü ildə birbaşa Heydər Əliyevin göstərişi ilə Bakı şəhəri İcraiyyə Komitəsi nəzdində Hüquqi biliklər Universiteti fəaliyyətə başladı ki, bu işdə də əsas məqsəd hüquqi biliklərin geniş yayılması olmuşdur. O dövrdə televiziya və mətbuatda hüquqi verilişlərin və bu sahədə informasiyaların artırılması da Heydər Əliyevin adı ilə sıx şəkildə bağlıdır. Bütün qeyd edilənlərin önündə və belə demək olar ki, əsas elmi icraçısı məhz professor Murtuz Ələsgərov idi. Bundan başqa, bilavasitə Hüququn əsasları fənni də professor Murtuz Ələsgərovun rəhbərlik etdiyi kafedranın əsas istiqamətlərindən biri idi. Əsas hüquqi televiziya verilişləri, o cümlədən beynəlxalq-hüquqi məsələlər də məhz professor Murtuz Ələsgərov tərəfindən peşəkarcasına şərh edilirdi.



Respublikada hüquqşünas kadrlara böyük ehtiyac olduğunu görən Heydər Əliyevin birbaşa göstərişi ilə Hüquq fakültəsi nəzdində "Sovet quruculuğu" ixtisası üzrə qiyabi şöbə yaradılmışdır. Əsas məqsədi dövlət quruculuğu sahəsində kadrlar hazırlamaq olan bu ixtisası qurtaran şəxslər dövlət və hökumət qurumlarında mühüm vəzifələrə göndərilirdilər. Qeyd edilən müddətdə dövlət və hökumət qurumları üçün minə yaxın hüquqşünas kadrlar hazırlanmışdır. "Sovet quruculuğu" ixtisasının əsas bazası da professor Murtuz Ələsgərovun rəhbərlik etdiyi Dövlət hüququ kafedrası idi.

Heydər Əliyevin o dövrdə uzaqgörənliyinin əsas nöqtələrindən biri də Azərbaycanda beynəlxalq hüquq məktəbinin qurulması olmuşdur. Azərbaycanın gələcəkdə müstəqil bir dövlət kimi dayaqlarını quran Heydər Əliyev o dövrdə artıq Azərbaycanı tanıtdırmış, Azərbaycanı dünyaya sevdirməyə başlamışdır. SSRİ miqyasında Moskva və Kiyevlə bərabər, Bakının da xarici ölkələrə diplomatlar və beynəlxalq hüquq sahəsində mütəxəssislər hazırlayan bir mərkəzə çevrilməsi Heydər Əliyev siyasətinin nəticəsi idi. Hüquq fakültəsində Beynəlxalq hüquq ixtisası üzrə kadrların yetişdirilməsinə iki əsas istiqamətdə başlanıldı. Birincisi, bu sahədə tədrisi aparan azərbaycanlı alimlərin yetişdirilməsi və daha da çoxaldılması həyata keçirildi. İkincisi isə, dünyanın 60-dan çox ölkəsi üçün (Yaxın Şərq, Asiya, Afrika, Latın Amerikası və s. ölkələr) milli kadrların hazırlanmasında Azərbaycanın rolu artırdı. Azərbaycan o dövrdə məhz indiki dövr üçün tanınmağa başlanıldı. Hazırda həmin məzunlar öz ölkələrində mühüm dövlət vəzifələrində çalışırlar. Professor Murtuz Ələsgərov burada da Heydər Əliyev siyasətinin önündə gedirdi. Belə ki, o, nəinki Azərbaycanda bu sahədə mütəxəssislərin yetişdirilməsində yaxından iştirak etmiş, o dövrlər Moskva, Kiyevlə bərabər, Bakıda da əcnəbilər üçün Beynəlxalq hüquq sahəsində kadrların yetişdirilməsinə bilavasitə rəhbərlik etmişdir. Öz ölkələrində bu gün yüksək vəzifələr tutan və universitetimizin məzunu olan çoxlu sayda insanlar bu gün də tez-tez Azərbaycana gələrkən Hüquq fakültəsini ziyarət edir, əziz Murtuz müəllimi dönə-dönə böyük ehtiram hissi ilə xatırlayırlar. İndi təsəvvür edin ki, həm sovetlər dönəmində, həm də müstəqillik illərində Murtuz müəllimin elmi fəaliyyəti - biliyi nəinki Azərbaycana, həm də beynəlxalq cəmiyyətə xidmət etmişdir.

1980-ci illərin sonunda Heydər Əliyevin SSRİ rəhbərliyindən kənarlaşdırılmasından sonra Azərbaycanın başını qara buludlar almışdı. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın Azərbaycandan zorla qoparılaraq Ermənistana birləşdirilməsi istiqamətində SSRİ çərçivəsində ciddi işlər başlayarkən Murtuz Ələsgərov 1988-ci il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sessiyasına müraciətində Dağlıq Qarabağ Muxtar Vilayətinin və Ermənistan Ali Sovetinin Dağlıq Qarabağ Muxtar Vilayətinə dair qərarlarının Konstitusiyaya zidd olduğunu göstərmiş və bunu Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə qəsd kimi qiymətləndirmişdir. Həmin ildə o, Dağlıq Qarabağ konsepsiyasının tezislərini hazırlamış, Moskvada Dövlət və Hüquq İnstitutunda keçirilmiş "Hüquq, qanunçuluq və milli siyasət" problemlərinə həsr olunmuş beynəlxalq konfransda çıxış edərək Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasını əsaslandırmışdır. SSRİ qoşunlarının 1990-cı ilin yanvar ayında ölkəmizin suverenliyini tapdalayaraq Bakı və ətraf yerlərdə xalqımıza qarşı törətdiyi kütləvi qırğınla əlaqədar BMT-nin İnsan hüquqları komissiyasına Azərbaycan hüquqşünasları adından müraciəti də professor Murtuz Ələsgərov tərtib etmişdir.

Murtuz Ələsgərov ümummilli liderimiz Heydər Əliyevin ən yaxın silahdaşlarından biri idi. O, çətin vaxtlarda Yeni Azərbaycan Partiyasının yaranmasında yaxından iştirak etmiş, 1992-ci ildə Prezident seçkilərində yaş həddinin ləğv edilməsi ilə əlaqədar Milli Məclis qarşısında keçirilən mitinqə rəhbərlik etmişdi. Yeni Azərbaycan Partiyasının təsis edilməsi və formalaşmasına fəal şəkildə qoşulan məşhur "91-lər" hərəkatının fəallarından biri olan Murtuz Ələsgərov ömrünün sonunadək partiyanın sədr müavini kimi ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etmişdir. Təsadüfi deyil ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev görkəmli dövlət adamı Murtuz Ələsgərovu "Heydər Əliyevin ən yaxın silahdaşı" adlandırmışdır.

1993-1996-cı illərdə Bakı Dövlət Universitetinə rəhbərlik edən Murtuz Ələsgərov o dövrlər Sovetlər İttifaqının dağılmasından sonra, o cümlədən ilk müstəqillik illərində səriştəsiz rəhbərlik dövründə çox baxılmaz vəziyyətə düşən Bakı Dövlət Universitetini bir daha ayağa qaldırdı. Bütün istiqamətləri düzgün müəyyən etdi. Göründüyü kimi, burada da bu missiyanı şərəflə və layiqincə yerinə yetirdi. Azərbaycanın ən mötəbər ali məktəbinin əvvəlki nüfuzu özünə qayıtdı. Tədris intizamı möhkəmləndirildi, elmi yaradıcılıq mühiti bərpa edildi. BDU-ya rəhbərlik etdiyi dövrdə müəllimlərin əməkhaqlarının artırılması istiqamətində daim mühüm islahatlar aparmışdır. 1994-cü ilin oktyabrında və 1995-ci ilin mart ayında Azərbaycan dövlətçiliyi üçün təhlükə yarananda Murtuz Ələsgərov rəhbərlik etdiyi Bakı Dövlət Universitetinin çoxminlik kollektivi ilə birlikdə dövlətçiliyin müdafiəsinə qalxdı. Murtuz müəllim deyirdi: "Xalqımız xoşbəxtdir ki, dünya siyasətinə Heydər Əliyev kimi dövlət xadimi bəxş edib. Biz də xoşbəxtik ki, bu dahinin müasiri olmuşuq, onunla bir dövrdə yaşamışıq, onun rəhbərliyi altında fəaliyyət göstərmişik, onun yaxın silahdaşı olmuşuq. Heydər Əliyev nadir şəxsiyyətlərdəndir ki, bütün mənalı ömrünü xalqına, dövlətinə və ölkəsinə həsr edib, millətinə hər zaman şöhrət və başucalığı gətirib".

1995-ci ildə Milli Məclisə keçirilən seçkilərdə Murtuz Ələsgərov Yeni Azərbaycan Partiyasının nümayəndəsi kimi müstəqil dövlətimizin ilk parlamentinə deputat seçildi. 1996-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinə sədrlik edən Murtuz Ələsgərovun dövlətimizin qanunvericilik bazasının qurulmasında və müstəqil parlament ənənələrinin formalaşmasında müstəsna xidmətləri olmuşdur. O dövrlərdə Milli Məclisin heç bir qanun qəbul etmək praktikası belə yox idi. Professor Murtuz Ələsgərov üçün yeni qanunların məhz beynəlxalq hüquq normalarına uyğunlaşdırılması əsas istiqamətlərdən biri idi. Qanunvericilik hakimiyyətinə peşəkar hüquqşünas, Konstitusiya hüququ sahəsində görkəmli mütəxəssis və alim, eyni zamanda, bacarıqlı təşkilatçı və istedadlı siyasətçinin, ən nəhayət isə, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin yaxın silahdaşı olan professor Murtuz Ələsgərovun rəhbərlik etməsi Azərbaycan dövlətinin ciddi uğurlarından hesab edilməlidir.

Murtuz müəllimin xalqımız, dövlətimiz və dövlətçiliyimiz qarşısında əvəzsiz xidmətləri layiqincə qiymətləndirilmişdir. Professor M.N.Ələsgərov səmərəli ictimai-siyasi fəaliyyətinə görə "İstiqlal" ordeni, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", Müstəqil Dövlətlər Birliyinin "Sodrujestvo" ordeni, Rusiya Federasiyasının "Dostluq" ordeni və digər mükafatlarla təltif edilmişdir. Professor Murtuz Ələsgərov Kiyev Milli Universitetinin fəxri doktoru idi.

Professor Murtuz Ələsgərovla mənim ilk yaxından tanışlığım indi çalışdığım Universitetin Hüquq fakültəsinin tələbəsi olarkən 1990-91-ci illərdə "Konstitusiya hüququ" fənninin tədrisi zamanı olmuşdur. O vaxta qədər Murtuz müəllimi mən yalnız mətbuatdan və televiziyadan, o cümlədən atamın xatirələrindən tanıyırdım. Atam Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirsə də, Murtuz müəllim o vaxtlar gənc müəllim olaraq atama dərs dediyindən atam həmişə Murtuz müəllimin dərslərini xatırlayar, onun yüksək elmini və tələbələrlə sadə davranışını çox yüksək qiymətləndirərdi.

Murtuz müəllimin Konstitusiya hüququ dərslərində bu sahədəki məsələləri daim beynəlxalq hüquqla əlaqələndirməsi mənə o vaxt həm də çox maraqlı gəlirdi. Ancaq mən onun sirrini sonradan bildim. Belə ki, Murtuz müəllimin həm namizədlik, həm də doktorluq dissertasiya işi bilavasitə beynəlxalq hüquq problemlərinə həsr edilmişdir. Ona görə də o vaxtlar müvafiq fənnin tədrisi zamanı onu digər hüquq sahələri, xüsusən beynəlxalq hüquqla əlaqələndirməsi ancaq və ancaq Murtuz müəllimə xas böyük alimlik xüsusiyyəti idi. Artıq Konstitusiya hüququ fənninin tədrisi zamanı mən həm də Beynəlxalq hüquq barədə kifayət qədər biliklərə malik oldum. Beləliklə, bu gün beynəlxalq hüquq və insan hüquqları ixtisası üzrə ixtisaslaşmağım da məhz əziz müəllimim Murtuz Ələsgərovun o vaxtkı mühazirələri və tövsiyələri ilə olmuşdur.

Murtuz müəllimi biz sadəcə auditoriyalarda dinləmirdik. Dərsdənkənar vaxtlarda onun kafedrası daim açıq idi. Yəni tələbənin müraciətini və suallarını cavablandırılması sərbəst idi, sualları isə həmişə Murtuz müəllim peşəkarcasına, özü də çox və ətraflı - yorulmadan izah edirdi. Müxtəlif milli və beynəlxalq-hüquqi verilişlərdə onu dinləmək sadəcə bizi cəmiyyətə hazırlayır və biliklərimizi bir daha artırırdı. Murtuz müəllim çox ədalətli müəllim, humanist bir şəxsiyyət idi. Tələbələri imtahanla heç bir vaxt sınağa çəkməz, heç kim o kafedradan problem yaşamazdı. Hamı imtahandan gülərüz və elmli çıxar, daim digər müəllimlərin də belə olmalarını arzulayardı. Əsl müəllim xüsusiyyətlərinin cəmləşdiyi bir pedaqoq idi Murtuz müəllim. Murtuz Ələsgərovun ciddi elmi informasiyalarla zəngin olan mühazirələri son dərəcə maraqlı, əlçatan, canlı və əhatəli idi. O, hərtərəfli bir natiq kimi tələbələri öz nitqinə diqqətlə cəlb edir, onların qaldırdığı müzakirə xarakterli problemləri fikirlərinin tam məntiqliliyi ilə ətraflı izah edirdi. Tələbələri və yetirmələri Murtuz Ələsgərova biliyi tükənməz və əhatəli bir sistemə bənzəyən, bu sistemdən onların hamısına pay verməyə çalışan və onların qayğısına qalan bir görkəmli alim və müəllim kimi daim yadda saxlayırlar. Beləliklə, hüquqşünas kadrların mövqeyinin düzgün formalaşmasında və onların cəmiyyətin layiqli bir vətəndaşı kimi yetişməsində Murtuz müəllimin tədqiqatlarının, çıxışlarının, mühazirələrinin və s. fəaliyyətinin rolu əvəzedilməz olmuşdur.

Müstəqillik əhvalı ilə alışıb-yanan Murtuz müəllimin o dövrdə gələcək Konstitusiya üzrə özünün fikirlərini auditoriyada bildirməsi bu istiqamətdə həmişə yaddaqalan idi. Murtuz müəllim dünya konstitusiyalarının modellərini çox ciddi müqayisə edərək bizə çatdırırdı. Əksər sahədə qanunvericiliklərin çox pis olduğu o dövrdə Murtuz müəllimin yanına daim hüquqi məsləhət üçün gedib-gələnlərin də sayı kifayət qədər çox idi.

Nəhayət, universiteti bitirdikdən sonra mən aspiranturada təhsili davam etdirməyə qərar verdim. Bu məqsədlə də həmin vaxtlar rektor vəzifəsində çalışan Murtuz müəllimə müraciət etdim. Murtuz müəllim mənim təklifimə müsbət yanaşaraq hansı ixtisası seçdiyimi soruşduqda, mən Beynəlxalq hüququ dedim. Onda məhz onun nurani çöhrəsində xüsusi bir təbəssüm gördüm. Əlavə yer almaq üçün Təhsil Nazirliyinə müraciət etməklə mənim aspiranturaya daxil olmağıma xüsusi qayğı göstərdi. Mənə köməyini isə aktiv və savadlı tələbə kimi yaddaşında qalmağıyla izah etdi. O dövrdə beynəlxalq hüquq sahəsində elmi rəhbər də tapmaq çətin olduğundan məni fikir götürmüşdü. Mən xaricdən elmi rəhbər axtarışına başlamışdım. Nəhayət, aspiranturaya daxil olarkən minnətdarlıq etmək üçün Murtuz müəllimin yanına gedəndə, elmi rəhbər problemi ilə ciddi şəkildə üzləşdiyimi dedim. Dərhal göstəriş verdi ki, mənim seçəcəyim dissertasiya işi üzrə özü elmi rəhbər olsun. Bu mənim həyatımda xüsusi bir dönüş nöqtəsi oldu. İlk növbədə, məsuliyyətimi ciddi artırdı. İkincisi, belə bir dövlət, siyasi və elm xadiminin elmi rəhbərliyi altında işləmək çox fərəhləndirici hal idi.

Bilavasitə Murtuz müəllimin dəstəyi ilə də universitetdə müəllimlik fəaliyyətinə başladım. Aspirantların və gənc tədqiqatçıların respublika konfransının plenar iclasında etdiyim çıxışa görə məni dəfələrlə qəbul etmiş və öz dəyərli elmi məsləhətlərini vermişdi. Geniş fikir mübadiləsinə imkan yaradan Murtuz müəllimin ən böyük xüsusiyyəti tələbələrdən tutmuş, aspirantları da daxil olmaqla müəllimləri, bir sözlə, bütün qarşı tərəfi diqqətlə dinləmək idi. Hətta Milli Məclisin uzun müddət sədri olduğu dövrlərdə belə elmi məsləhətlər üçün müraciət edən, mən də daxil olmaqla, bütün tədqiqatçıları qəbul edirdi. Elmliliyi, müəllimlik peşəsinin incəliklərini, ədalətlilik, humanistlik və insanlara əlçatanlığı da məhz ondan öyrənmişəm. İnzibati vəzifədə çalışmağın mühüm sirlərini və əsas xüsusiyyətlərini də məhz Murtuz müəllimdən öyrənmişəm.

Namizədlik dissertasiyamı uğurla müdafiə edəndən sonra yenə də onun Milli Məclisin sədri kimi minnətdarlıq üçün qəbuluna gedəndə, onun təklifi ilə doktorluq dissertasiya işimi təsdiq etdirdim. Elmi məsləhətçi kimi yenə də yükü Murtuz müəllim öz üzərinə götürəndə, sevincimin həddi-hüdudu yox idi. Tezliklə müdafiə edəcəyim barədə Murtuz müəllimə verdiyim sözü 5 il müddətində yerinə yetirdim. Yenə də minnətdarlıq üçün Milli Məclisə gedərkən onun son məsləhətlərini və dəstəklərini heç vaxt unutmaram. Beynəlxalq hüquq elminin müxtəlif istiqamətlərinin inkişafı və bunun Azərbaycan Respublikası üçün zəruriliyi istiqamətində fikirləri bu gün də yadımdan çıxmır. Belə ki, cəmiyyət arasında geniş tanınan və istisnasız olaraq qəbul edilən bir şəxsin bütün sözləri tələbələr və müəllimlər üçün tam qəbul edilən olur və mayak rolunu oynayır. Beləliklə, böyük bir Hüquq məktəbinin əsasını qoyan Murtuz müəllim mühüm dövlət vəzifələrini tutsa da, daim özünün yetirmələri və tələbələri ilə sıx şəkildə fəaliyyət göstərmiş, ömrünün sonuna qədər Hüquqşünas kadrların yetişdirilməsində dayanmadan çalışmışdır. Onun elmi rəhbərliyi ilə müdafiə edilən dissertasiya işləri bu gün yeni elmi istiqamətlərin əsasını qoymuşdur. 11 ixtisaslaşmış kafedra, 1 Kriminalistik laboratoriya və 1 Hüquq klinikasını özündə birləşdirən Bakı Dövlət Universitetinin Hüquq fakültəsində müxtəlif istiqamətlər üzrə elmi məktəblər artıq tam formalaşmışdır. Məhz Murtuz müəllimin müəyyən etdiyi beynəlxalq və konstitusiya elmi məktəbləri bir qədər də daha qabarıq və ciddi inkişaf etmişdir. Məsələn, Avropa hüququ, İnsan hüquqları, Dəniz hüququ, İnzibati hüquq və s.

Hüquq fakültəsi daim Murtuz müəllim irsini qoruyacaq, inkişaf etdirərək fəxr edəcəkdir. Çünki Murtuz müəllim çox böyük, tanınmış alim, siyasətçi, dövlət xadimi və şəxsiyyət olmuşdur. Bu irsdən bəhrələndikcə də Hüquq fakültəsi daha da inkişaf edəcəkdir.

Uzun illər elmə, Azərbaycanın ali təhsilinə və dövlətçiliyinə böyük töhfələr vermiş görkəmli alim-pedaqoq, xalqına sədaqətlə xidmət etmiş dəyərli ictimai-siyasi xadim, dövlət adamı, professor Murtuz Nəcəf oğlu Ələsgərovun əziz xatirəsi Azərbaycan xalqının xatirəsində əbədi yaşayacaqdır.

**Əmir ƏLİYEV,**
**Bakı Dövlət Universiteti**
**Hüquq fakültəsinin dekanı,**
**hüquq üzrə elmlər doktoru, professor.**

# Ömrünü kimya elminin inkişafına həsr etmiş görkəmli alim

## *Tanınmış pedaqoq, kimya elmləri doktoru, akademik Rəfiqə Əliyevanın anadan olmasından 86 il ötür*



**Ömrünü kimya elminin inkişafına və kimyaçıların yeni nəslinin yetişməsinə həsr etmiş akademik Rəfiqə Əliyevanın anadan olmasından 86 il ötür. Görkəmli alimin xatirəsi və xidmətləri bu gün ehtiramla anılır. Onun ömrünün təxminən 70 ili Bakı Dövlət Universiteti ilə bağlı olub. Yetirmələri arasında 20-dən çox elmlər namizədi və elmlər doktoru var.**

**AZƏRTAC Rəfiqə Əliyevanın keçdiyi mənalı həyat yolu, Azərbaycan kimya elminə gətirdiyi yeniliklər və zəngin pedaqoji fəaliyyəti barədə BDU-nun rektoru, akademik Abel Məhərrəmovun məqaləsini təqdim edir.**

Akademik Rəfiqə Əliyeva bütün ömrünü, qüvvə, bilik və bacarığını kimya elminin inkişafına və bu sahədə yüksək ixtisaslı kadrların hazırlanmasına həsr etmiş görkəmli alimdir. Yarım əsrdən artıq pedaqoji fəaliyyətlə məşğul olan alimin yetirmələri Azərbaycanda, həmçinin dünyanın bir çox ölkələrində fəaliyyət göstərərək əldə etdikləri bilikləri bəşəriyyətin tərəqqisinə sərf edirlər. Rəfiqə Əliyevanın araşdırmaları kimyanın vacib istiqamətlərindən olan analitik reaksiyaları xarakterizə edən parametrlərlə kompleks birləşmələrin quruluşu arasındakı asılılığın müəyyən edilməsinə həsr olunub. Rəfiqə xanımın ətraf mühitin mühafizəsi ilə bilavasitə bağlı olan bir sıra tədqiqatları, eyni zamanda, üzvi reaktivlərin köməyi ilə metalların təyini və onların ayrılması metodikasının işlənib hazırlanmasına yönəlmişdi. Bu tədqiqatları inkişaf etdirmək üçün universitetdə böyük əzmkarlıqla və gərgin zəhmət hesabına yeni və müasir bir elm mərkəzi - Ekoloji kimya və ətraf mühitin mühafizəsi Elmi-tədqiqat laboratoriyasını yaratdı. Buraya istedadlı və bacarıqlı gəncləri yığaraq onlara böyük qayğı göstərdi, elmi rəhbərliyi ilə laboratoriyanı ekoloji tədqiqatlar baxımından ölkədə ən qabaqcıl elm mərkəzinə çevirə bildi. Beləliklə, ekologiyanın aktual problemlərinə dair işləri ilə ölkəmizin davamlı inkişafının təmin olunmasına öz töhfələrini verdi. 450-dən çox elmi əsərin, 25 dərslik və dərs vəsaitinin, 20 patentin müəllifi olan akademik Rəfiqə Əliyeva bir sıra nüfuzlu elmi qurumların və cəmiyyətlərin üzvü idi. Onun rəhbərliyi altında 20-dən çox fəlsəfə doktoru və elmlər doktoru yetişib.

Respublikanın tanınmış kimyaçı alimi, Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, kimya elmləri doktoru Rəfiqə Əlirza qızı Əliyeva 1932-ci il sentyabrın 20-də Naxçıvan şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra ali təhsilini 1951-1956-cı illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) kimya fakültəsində alıb. Əmək fəaliyyətinə 1956-1960-cı illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Qeyri-üzvi və Fiziki Kimya İnstitutunda (indiki akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu) kiçik elmi işçi vəzifəsində başlayıb. 1960-cı ildə ADU-nun analitik kimya kafedrasında analitik kimya ixtisası üzrə aspiranturaya qəbul olub. 1964-cü ildən ömrünün sonuna qədər universitetin analitik kimya kafedrasında işləyib və assistent, baş müəllim, dosent, professor vəzifəsinə qədər yüksəlib. 1970-ci ildə analitik kimya ixtisası üzrə "Germaniumun bəzi üzvi reagentlərlə əmələ gətirdiyi birləşmələrin spektrofotometrik tədqiqi və onun fotometrik metodla təyini" mövzusunda namizədlik dissertasiyası, 1999-cu ildə isə kimya elmləri doktoru elmi dərəcəsini almaq üçün "d-, f- elementləri və germaniumun tərkibində N-, S-, O-olan liqandlarla müxtəlifliqandlı kompleksləri və onların analitik tətbiqi" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. 1999-cu ildə analitik kimya ixtisası üzrə professor elmi adını alıb və analitik kimya kafedrasının professoru vəzifəsində çalışıb. 2001-ci ildən ömrünün sonunadək BDU-da onun təşəbbüsü ilə yaradılmış "Ekoloji kimya və ətraf mühitin mühafizəsi" elmi-tədqiqat laboratoriyasının müdiri vəzifəsində işləyib. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilib. Azərbaycanda analitik kimya ixtisası üzrə ilk qadın akademikdir.

Akademik Rəfiqə Əliyeva keçid və nadir torpaq elementlərinin fotometrik təyini və qatılaşdırma metodikalarının öyrənilməsi sahəsində tədqiqatlar aparıb, germaniumun fotometrik təyini üçün yüksək analitik xarakteristikaları ilə seçilən metodika təklif edib. Bu metodika mürəkkəb tərkibli nümunələrdə germaniumu təyin etmək üçün tətbiq olunub. Onun rəhbərliyi ilə piroqallol, tiofen və asetilaseton əsasında sintez edilmiş üzvi birləşmələrlə Cu(II), Ni(II), Fe(III), Al(III), Sn(IV), Ge(IV), Ti(IV), Zr(IV), Th(IV), U(VI), Mo(VI), (VI) ionlarının təyini üçün fotometrik təyinat metodikaları işlənib hazırlanıb. Həmin elementlərin təyini üçün təklif olunan fotometrik metodikaların yüksək analitik göstəricilərə malik olduğu müəyyən edilib. İşlənmiş metodikalar həmin elementlərin təbii və sənaye obyektlərdə təyini üçün tətbiq olunub. Piroqallol əsaslı azobirləşmələrlə bir çox metal ionlarının əmələ gətirdiyi bərk halda kompleks birləşmələr sintez edilib, müxtəlif fiziki-kimyəvi analiz metodları ilə onların quruluşu və xassələri öyrənilib.

Rəfiqə xanım Əliyeva tərəfindən -diketonlar əsasında azobirləşmələrin ilk dəfə olaraq qeyri-üzvi ionların fotometrik təyini üçün reagent kimi tətbiq edilməsi təklif olunub. Onun rəhbərliyi altında sintez edilmiş üzvi reagentlərin kvantkimyəvi hesablamalara görə elektron sıxlıqları hesablanıb. Alınmış nəticələrə əsasən bu reagentlərin bir-birinə nəzərən nə dərəcədə analitik effekt verməsi qabaqcadan proqnozlaşdırılıb. Rentgen quruluş analiz metodu ilə reagentlərin çoxunun quruluşu müəyyənləşdirilib. İlk dəfə olaraq Cu(II), Co(II), Ni(II), U(VI) ionları ilə b-diketon əsaslı azobirləşmələrlə binar və müxtəlifliqandlı komplekslərin 20-dən çox monokristalı yetişdirilib. Sintez olunmuş kompleks birləşmələr rentgen quruluş analizi metodu ilə tədqiq edilib.

Görkəmli alim tərəfindən qarışıqliqandlı kompleks birləşmələrin tədqiqi sahəsində də ətraflı tədqiqatlar aparılıb. O, ilk dəfə olaraq liqand-liqand qarşılıqlı təsirini müxtəlif fiziki-kimyəvi metodlarla öyrənməklə qarışıqliqandlı kompleks birləşmələrin alınmasında üçüncü komponentin seçilməsi prinsipi haqqında müəyyən fikirlər irəli sürüb. Təcrübi faktların təhlilinə əsasən müəyyən edib ki, qarışıqliqandlı kompleks birləşmələrin alınmasında binar sistemə əlavə edilən üçüncü komponent metala koordinasiya edərsə, onda kompleks birləşmələrin davamlılığı artır, bu isə seçiciliyin artmasına səbəb olur. Əgər üçüncü komponent liqandla qarşılıqlı təsirdə olarsa, onda çox vaxt komplekəmələgəlmə reaksiyalarının həssaslığı artır. Bu sahədə akademik Rəfiqə Əliyevanın apardığı elmi tədqiqatlar çoxillik təcrübəyə malik, tanınmış alimlərin diqqətini cəlb edib.



Akademik Rəfiqə Əliyeva Cu(II), Cd(II), Pb(II), Zn(II), Fe(III), Ni(II), Co(II), Th(IV), U(VI) və Pd(II) ionlarının sintetik sorbentlərlə qatılaşdırılma metodlarını da tədqiq edib. Onun rəhbərliyi ilə polibutadien və malein anhidridi-stirol sopolimerləri əsasında xelatəmələgətirici polimer sorbentlər sintez olunub. Fiziki-kimyəvi metodlar vasitəsi ilə sintez olunmuş sorbentlərin tərkibi, quruluşu və fiziki-kimyəvi xarakteristikaları təyin edilib. Polibutadien və malein anhidridi-stirol sopolimerləri əsasında olan sorbentlərin sorbsiya xassələrinin ədəbiyyatdan məlum olan sorbentlərin xassələri ilə müqayisəsi göstərib ki, sintez olunmuş sorbentlər daha yüksək sorbsiya tutumuna və üstün kinetik xassələrə malikdir. Yuxarıda adı çəkilən metal ionlarının polimer sorbentlərdən sorbsiya və desorbsiyasının optimal şəraiti müəyyən edilib. Potensiometrik titrləmə metodu vasitəsi ilə bəzi ağır metal ionlarının alınmış sorbentlərlə komplekslərin davamlılıq sabitləri təyin olunub və sorbentlərin metalların ayrılması üçün effektivliyi proqnozlaşdırılıb. Onun rəhbərliyi ilə həmin ionların neftayırma zavodlarından alınan çirkab sularında, neft şlamında, neft çıxarılan zaman alınan suda, dəniz suyunda effektiv atom-absorbsion və sorbsion-fotometrik təyinat metodikaları hazırlanıb. İlk dəfə olaraq Cd(II) və Pb(II)-nun qaraciyər, böyrək, mədə və bağırsaq tutumunda təyini metodikaları işlənib hazırlanıb.

Onun rəhbərliyi ilə Moskva Dövlət Universitetinin Analitik kimya kafedrasının əməkdaşları tərəfindən nəşr olunmuş "Analitik kimyanın əsasları" (iki cilddə) və "Analitik kimyadan məsələ və suallar" kitabları Azərbaycan dilinə tərcümə edilib. Bu kitablar Azərbaycanın ali təhsil müəssisələrinin müəllim, elmi işçi və doktorantlarının işində mühüm rol oynayıb.

Akademik Rəfiqə Əliyeva "Ekoloji kimya və ətraf mühitin mühafizəsi" elmi-tədqiqat laboratoriyasında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin tabeçiliyində olan müəssisələrlə elmi-texniki təsərrüfat müqavilələri işlər yerinə yetirilməsinə rəhbərlik edib. Bu işlər nəticəsində Bakı Dövlət Universiteti böyük miqdarda mənfəət götürüb. Təsərrüfat müqavilələrinin nəticələrinə əsasən ətraf mühitin çirklənməsi qiymətləndirilib, zərərli və ağır metalların qatılaşdırılaraq ayrılmasının yeni, ucuz və iqtisadi cəhətdən əlverişli metodikaları işlənib hazırlanıb.

ABŞ, Türkiyə, Rusiya, Yaponiya, Avstraliya və digər ölkələrdə keçirilən beynəlxalq simpozium və konfransların iştirakçısı olan Rəfiqə xanım Əliyeva Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən D 02.011 şifrli Dissertasiya müdafiə Şurasının sədr müavini, Bakı Dövlət Universitetinin və kimya fakültəsinin Elmi şuralarının üzvü olub.

Rəfiqə xanım tələbəlik illəri də daxil olmaqla ömrünün 70 ilə yaxın bir dövrünü bu universitetə həsr edib. O, həyatının ən ağır dövrlərində - ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində məlum səbəblərlə bağlı qaragüruh qüvvələrin göstərdiyi təzyiqlərə, belə demək mümkünsə, repressiyalara ləyaqətlə sinə gərdi. Onu universitetdən çıxarmaq istəyən qara qüvvələrlə necə mübarizə apardığını yaxşı xatırlayıram. Mən o vaxtlar Kimya fakültəsinin dekanı idim. Yadımdadır ki, biz bəzən saatlarla əsassız yerə yaradılan komissiyalara, cürbəcür sorğusuallara cavab verməli olurduq. İşdən sonrakı vaxtlarda mən onun otağına gedib vəziyyəti birgə müzakirə edir, çıxış yolları axtarırdıq. Mən o vaxtlar onun dəyanətinə, iradəsinə, dərin məntiqinə, parlaq zəkasına heyrət edirdim.

Akademik Rəfiqə Əliyeva böyük bir nəslin ən parlaq nümayəndələrindən biri idi. Həmin nəsil Azərbaycan tarixində dövlətçiliyimizin təməlini qoymuş, onu dünyanın müasir dövlətləri sırasına çıxarmışdır. Bu nəslin qurub-yaratmaq, xeyirxahlıq etmək kimi ən gözəl keyfiyyətlərini özündə birləşdirən, daxilən təvazökar, zəngin mənəvi keyfiyyətlərə malik olan Rəfiqə Əliyeva tələbələrin böyük himayədarı idi. Bəzən kasıb bir tələbənin qolundan tutub mənim otağıma gətirir, onun rastlaşdığı problemlərin həll olunmasını istəyirdi. Həmin tələbəyə maddi yardım göstərir, ev şəraiti ilə maraqlanır, qısası, onu ana qayğısı ilə əhatə edirdi. Tanımadığı, hansı rayondan olduğunu bilmədiyi tələbəyə əlindən gələn köməyi əsirgəmirdi. Adi bir qızcığazın dərdini başa düşən, ona kömək edən Rəfiqə xanım öz problemlərini heç vaxt qabartmazdı. Şəxsi işləri ilə bağlı heç kəsi narahat etmək istəmirdi.

Təvazökarlığından irəli gələn mənəvi böyüklüyündən yubileylərini də keçirməyə icazə vermirdi. Yadımdadır, 2002-ci ildə 70 yaşı tamam olurdu, nə qədər xahiş etdim ki, gəlin yubileyinizi qeyd edək, razılaşmadı. Dedi ki, ölkəmizin bu qədər problemi, qaçqını, köçkünü, kasıb tələbəsi var, mənə yubiley keçirmək yaraşmaz. 75 illik, 80 illik yubileylərində də razılaşmadı. Özü ilə bağlı digər məsələlərdə də yanaşması belə idi - istər dövlət təltifləri olsun, istər digər fəxri titullar.

Rəfiqə xanımın elm və təhsildən, kimya elminin inkişafından başqa bir istəyi yox idi. Mənimlə birgə bir neçə kitabın həmmüəllifidir. Yaxşı xatırlayıram, həmin kitabların ərsəyə gəlməsi üçün nə qədər ürəkdən çalışırdı, onların üzərində necə həvəslə və yaradıcılıqla işləyirdi, kitab çap olunanda isə necə fərəhlənirdi. Universitetdə böyük əzmkarlıqla və gərgin zəhmət hesabına yeni və müasir bir laboratoriya - Ekoloji kimya və ətraf mühitin mühafizəsi laboratoriyasını yaratdı. Bu laboratoriyanı ekoloji tədqiqatlar baxımından ölkədə ən qabaqcıl elm mərkəzinə çevirdi. Ora istedadlı və bacarıqlı gəncləri yığdı, onlara ana qayğısı göstərdi, elmi rəhbərlik etdi. Neçə-neçə alim yetişdirdi. Uzun illər Kimya üzrə müdafiə Şurasının sədr müavini kimi məhsuldar fəaliyyət göstərdi. Məhz bu qayğıkeşliyinin, zəhmətsevərliyinin, elm və təhsil yolunda fədakarlığının nəticəsidir ki, bu günlərdə - sentyabrın 6-da "Azərbaycanım" Beynəlxalq Jurnalının Redaksiya Şurası Azərbaycanın tanınmış ictimai xadimi, kimya elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, "Şöhrət" ordeni laureatı, Əməkdar elm xadimi, akademik Rəfiqə Əlirza qızı Əliyevanın adının əbədiləşdirilməsi məqsədi ilə "Akademik Rəfiqə Əliyeva adına Qızıl Orden" təsis edib. Belə hadisələr bizi çox fərəhləndirir. Çünki vəfatından sonra da insanlar tərəfindən dəyərləndirilmək, tələbələri tərəfindən sevilmək hər adama qismət olan xoşbəxtlik deyil. Rəfiqə xanıma həyatda qazandığı səmimi hörməti hələ də dəyərləndirirlər, onun böyük xidmətlərini xatırlayırlar, qiymət verirlərsə, bu o deməkdir ki, akademik Rəfiqə xanım Əliyeva əbədiyaşarlıq statusu qazanmış insanlardandır.

Görkəmli alimin elmi-pedaqoji fəaliyyəti Azərbaycan dövləti tərəfindən də layiqincə qiymətləndirilib. Azərbaycan Prezidentinin sərəncamı ilə o, 2000-ci ildə "Əməkdar elm xadimi" fəxri adı, 2009-cu ildə "Şöhrət" ordeni ilə təltif edilib. O, akademik Y.Məmmədəliyev adına mükafatın laureatıdır. 2000-ci ildə akademik Rəfiqə Əliyeva Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, 2001-ci ildə Amerika Biblioqrafiya İnstitutu tərəfindən "2001-ci ilin adamı" və "2001-ci ilin işgüzar qadını" seçilib, 2003-2004-cü tədris ilində Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəxri fərmanı ilə təltif olunub. 2005-ci ildə Bakı Dövlət Universitetinin təsis etdiyi "İlin alimi" fəxri adına, "Ekologiya" və "ümumi ekologiya" adlı dərs vəsaitləri isə Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsis etdiyi Həsən Əliyev adına mükafata layiq görülüb, "Sevil" qadınlar cəmiyyətinin fəxri sədri olub.

Həyatının mənasını elmə, vətənə xidmət etməkdə görən, kimyaçıların yeni nəslinin yetişməsində əvəzsiz rolu olan Rəfiqə Əliyevanın əziz xatirəsi həmkarlarının və tələbələrinin qəlbində həmişə yaşayacaqdır.

**Abel MƏHƏRRƏMOV,**
**BDU-nun rektoru, akademik.**

# Təlimə cəlb olunan hərbi hissələrin və hərbi texnikanın döyüş qabiliyyəti yoxlanılıb

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov təlimlərin keçirildiyi bölgələrdə səhra şəraitində yerləşdirilən hərbi hissələrin şəxsi heyətinin, döyüş texnikasının, aviasiya vasitələrinin, raket və artilleriya qurğularının döyüşə hazırolma və döyüş qabiliyyətini yoxlayıb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, genişmiqyaslı təlimlərin planına əsasən müharibə şəraitinə uyğun yaradılmış komanda idarəetmə məntəqələri və müxtəlif poliqonlardakı təlim nöqtələrinə baş çəkən müdafiə naziri şəxsi heyətin, silah-sursatın və döyüş texnikasının təlimlərdə iştirakı, eləcə də tapşırıq və sərəncamların dəqiq icra olunması ilə bağlı müvafiq göstərişlər verib.

Təlimlər davam edir.

**AZƏRTAC**



# Bir sıra ölkələrin parlament rəhbərləri Azərbaycana səfərə gəliblər

**Sentyabrın 19-da bir sıra ölkələrin parlament rəhbərləri - Cibuti Respublikası Milli Assambleyasının sədri Mohamed Ali Humed, Səudiyyə Ərəbistanının Məşvərət Şurasının sədri Abdullah bin Məhəmməd bin İbrahim Al Əl-Şeyx, Oman Sultanlığı Dövlət Şurasının sədri Yahya bin Məhfuz Əl-Munziri, Qırğız Respublikası Joqorku Keneşinin sədri Dastanbek Cumabekov, Küveyt Dövləti Millət Məclisinin sədri Mərzuq Əli əl-Ğanim, Pakistan İslam Respublikası Senatının sədri Məhəmməd Sadiq Sencari, Bolqarıstan Xalq Məclisinin sədri xanım Tsveta Karayançeva və Bosniya və Herseqovina Nümayəndələr Palatasının sədri Mladen Boşiç Azərbaycana səfərə gəliblər.**

AZƏRTAC xəbər verir ki, səfərin məqsədi Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçiriləcək təntənəli iclasda iştirak etməkdir.

Azərbaycanın və adları qeyd olunan ölkələrin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda parlament rəhbərlərini Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov, sədrin müavinləri Valeh Ələsgərov, Bahar Muradova və digər rəsmi şəxslər qarşılayıblar.

**AZƏRTAC**

*Haynts-Kristian Ştraxe:*

# Avstriya-Azərbaycan əlaqələrini daha da genişləndirmək üçün əlverişli şərait mövcuddur

**Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadənin Bakıda səfərdə olan Avstriya Respublikasının vitse-kansleri, dövlət qulluğu və idman üzrə federal naziri Haynts-Kristian Ştraxenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə nəqliyyat və telekommunikasiya sahəsində əlaqələrin genişləndirilməsi müzakirə olunub.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə nazir Ramin Quluzadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin Azərbaycanın mühüm əhəmiyyətli nəqliyyat qovşağına çevrilməsinə, informasiya texnologiyalarının bütün sahələrdə tətbiqinin genişləndirilməsinə və bu istiqamətlər üzrə beynəlxalq əlaqələrin möhkəmləndirilməsinə səbəb olduğunu vurğulayıb.

Azərbaycanın bir çox beynəlxalq layihələrin təşəbbüskarı və əsas iştirakçısı olduğunu qeyd edən nazir ölkəmizdə nəqliyyat və İKT sektorunda aparılan islahatlar, həyata keçirilən regional və yerli əhəmiyyətli layihələr, planlaşdırılan işlər barədə nümayəndə heyətinə ətraflı məlumat verib.

Görüş zamanı nəqliyyat, innovasiyalar və texnologiyalar sektorunda investisiyaların və birgə müəssisələrin təşviqi, eləcə də innovasiya proqramlarının tətbiqi üzrə təcrübə mübadiləsinin əhəmiyyəti qeyd olunub.

Eyni zamanda, ölkələrimiz arasında müvafiq sahələrdə əlaqələri intensivləşdirmək və birgə layihələrin icrası məqsədilə işçi qrupunun yaradılmasının vacibliyi vurğulanıb.

Həmçinin sözügedən qurumlar arasında yüksək texnologiyalar və innovasiyalar sahələrində seminarlar və təlimlərin təşkili, bu prosesə hər iki ölkənin ekspert və tədqiqatçılarının cəlb edilməsinə dair də fikir mübadiləsi aparılıb.

Ölkələrimiz arasında əməkdaşlığın inkişafından məmnunluğunu ifadə edən Avstriyanın vitse-kansleri Haynts-Kristian Ştraxe bildirib ki, bütün sahələrdə Avstriya-Azərbaycan əlaqələrini daha da genişləndirmək üçün əlverişli şərait mövcuddur. Vitse-kansler iki ölkə rəsmiləri arasında sıx münasibətlərin ölkələrarası əlaqələrin inkişafına xidmət etdiyini qeyd edib.

Sonda "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Avstriya Respublikası Nəqliyyat, İnnovasiya və Texnologiya üzrə Federal Nazirliyi arasında Niyyət Memorandumu" imzalanıb.

Memorandumu Azərbaycan Respublikası adından nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Avstriya Respublikası adından Federal vitse-kansler, dövlət qulluğu və idman üzrə federal naziri Haynts-Kristian Ştraxe imzalayıblar.

**AZƏRTAC**

*20 sentyabr Neftçilər Günüdür*

# SOCAR öz inkişafının yeni mərhələsinə qədəm qoyur

**"Bu gün müstəqil Azərbaycan və bizim uğurlu neft-qaz siyasətimiz göstərir ki, ancaq müstəqillik şəraitində, müstəqillik dövründə Azərbaycan xalqı öz təbii ehtiyatlarından istifadə edə bilər, ancaq müstəqillik dövründə Azərbaycan uğurla inkişaf edə bilər".**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**



**Rövnəq ABDULLAYEV,**
**SOCAR-ın prezidenti.**

Dövlət müstəqilliyinin əsas təminat sütunlarından biri iqtisadi güc və tərəqqidir. Dövlətin iqtisadi potensialı onun müstəqilliyini möhkəmləndirirsə, müstəqillik də öz növbəsində iqtisadi inkişaf və yüksəliş üçün münbit zəmin yaradır. Əminliklə qeyd edə bilərik ki, bu gün Azərbaycanın Dövlət Neft Şirkəti olaraq SOCAR-ın həm də müxtəlif ölkələrdə genişmiqyaslı layihələr və əməliyyatlar həyata keçirməklə enerji bazarlarının mühüm iştirakçısına çevrilməsi ölkəmizin müstəqil xarici və daxili siyasəti nəticəsində mümkün olmuşdur. Hələ 90-cı illərin əvvəllərində lokal neft hasilatçısı olan SOCAR "Əsrin müqaviləsi"nin imzalanmasından ötmüş 24 il ərzində böyük sıçrayış edərək 2018-ci ildə öz inkişafının növbəti tarixi mərhələsinin astanasına yetişmişdir. Son illərdə Azərbaycan daxilində və xaricdə başladığımız bir çox nəhəng layihələr bu il tamamlanaraq istismara verilir. Dünyanın ən böyük sənaye layihələrindən olan Cənub Qaz Dəhlizinin (TANAP) rəsmi açılışı Azərbaycan və Türkiyədə keçirilmiş təntənəli tədbirlərlə qeyd olundu. "SOCAR Polymer" kompleksinə daxil olan Polipropilen zavodunun açılışı keçirildi və ilin sonunadək həmin kompleksin digər zavodunun, həmçinin SOCAR Karbamid, Türkiyədə STAR Neft Emalı Zavodu, Heydər Əliyev adına Neft Emalı Zavodunda Bitum istehsalı qurğusunun istismara təhvil verilməsi planlaşdırılır. Həmin layihələrin ərsəyə gəlməsi üçün tələb olunan böyük sərmayə qoyuluşları SOCAR-ın, ölkəmizdə fəaliyyət göstərən tərəfdaşlarımızın kapitalı, eləcə də kənardan cəlb edilmiş maliyyə vəsaiti hesabına həyata keçirilir və yaxın müddətdə yüksək mənfəət mənbəyi olacaqdır. SOCAR-ın biznes inkişafında qədəm qoyduğu bu yeni mərhələ respublikamızın iqtisadi qüdrətinin daha da artırılmasına xidmət edir. Yeni dövr Azərbaycan neftçilərinin qarşısında yeni vəzifələr də qoyur. SOCAR artıq yalnız Azərbaycanda deyil, bütün regionda beynəlxalq neft-qaz hasilatçıları arasında özünə layiqli yer tutmuşdur və öz ranqında olan digər şirkətlər kimi yeni təşkilatlanma və idarəetmə nümunələri əsasında tədricən transformasiya etməlidir. Bu proses artıq bir neçə ildir başlayıb və davamlı şəkildə məntiqi yekununa doğru irəliləyir.

1994-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış və bütün daxili və xarici maneələrə rəğmən gerçəkliyə çevrilmiş "Əsrin müqaviləsi" müasir tariximizə yeni neft strategiyasının şanlı səhifəsi kimi yazılmışdır. O zaman Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti vəzifəsində çalışan möhtərəm Prezidentimiz İlham Əliyev xarici tərəfdaşlarla aparılmış gərgin danışıqlarda böyük diplomatik məharət göstərərək, "Əsrin müqaviləsi"nin imzalanmasında mühüm rol oynamış, sonrakı mərhələlərdə bu taleyüklü layihənin uğurla həyata keçirilməsinə bilavasitə rəhbərlik etmişdir. "Əsrin müqaviləsi" qlobal layihə olmaqla Azərbaycanın suveren dövlət kimi öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını müdafiə etmək əzmini bütün dünyaya göstərdi, dövlət müstəqilliyinin mühüm təminatına çevrildi. Bu kontrakt bu gün də həm işlənən yataqlarda karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada həyata keçirilən ən iri sazişlər siyahısına daxildir. "Azəri-Çıraq-Günəşli" layihəsi çərçivəsində qazanılmış nailiyyətlər, xarici tərəfdaşlarla qurulan qarşılıqlı faydalı istehsalat münasibətləri elə güclü iqtisadi səmərə verdi ki, ötən il onlar layihənin 2050-ci ilədək uzadılması təşəbbüsü ilə çıxış etdilər və Azərbaycan üçün daha əlverişli şərtlərlə yeni müqavilə imzalandı.

Müstəqilliyimizin ilk illərində SOCAR-ın qarşısında duran əsas vəzifələr ölkə iqtisadiyyatının dirçəlməsi, bu məqsədlə neft hasilatını artırmaq və dənizin dərinsulu hissəsində yeni yataqların işlənməsi üçün xaricdən investisiya və texnologiyalar cəlb etmək idisə, artıq hədəflərimiz dəyişib. SOCAR indi daxili imkanları hesabına müasir dərin dəniz özülləri inşa edir, quraşdırır, istismar edir, dənizin böyük dərinliklərində qazma işlərini yerinə yetirir, ən müasir standartlar səviyyəsində sənaye müəssisələri qurur, böyük transmilli layihələrdə operator qismində iştirak edir, xarici bazarlara sərmayə yatırır. Məhz kəşfiyyat və hasilat sahələrində əldə edilən uğurlar SOCAR-ın beynəlxalq investisiyalarının, qlobal əməliyyatlarının genişlənməsi üçün geniş şərait yaratmışdır. Bu gün şirkətimiz dünyanın müxtəlif ölkələrində neft və qaz məhsullarının nəqli üçün zəruri olan infrastruktur obyektlərinə, magistral boru kəmərlərinə, gəmilərə, liman və terminallara, digər nəqliyyat-logistika vasitələrinə malikdir. Müasir qlobal infrastrukturun qurulması şirkətin dünya brendinə çevrilməsinin əsas şərtlərindən biri olub. Hazırda SOCAR və onun törəmə şirkətləri 15 ölkəni təmsil edən 24 şirkətlə imzalanmış 19 Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) və 2 Risk Xidməti Sazişinin (RXS) tərəfdaşlarıdır. HPBS və RXS podratçıları tərəfindən 1995-ci ildən 2018-ci ilin ikinci rübünədək Azərbaycan Respublikasının neft-qaz sektoruna ümumilikdə 80.3 milyard ABŞ dolları məbləğində sərmayə yatırılmışdır.

Cari ildə tamamlanması nəzərdə tutulan layihələrə nəzər saldıqda əvvəlki dövrdə daha çox hasilatçı kimi tanınan SOCAR-ın son 10 il ərzində öz biznes portfelini əhəmiyyətli dərəcədə şaxələndirə bilməsi, neft və qaz sənayesinin bütün dəyər zənciri üzrə yeni fəaliyyət sahələrinə daxil olması, həmin sahələrdə qısa müddət ərzində ciddi uğur qazanması aydın görünür. Bunlar əsasən, hazırda dünyada böyük maraq obyektinə çevrilmiş "Cənub Qaz Dəhlizi"nin tərkib hissələri və neftin-qazın emal və kimyası sahələrində icra olunan layihələrdir. Təhlil göstərir ki, fəaliyyət növündən və istiqamətindən asılı olmayaraq, tamamlamaqda olduğumuz layihələr SOCAR-a və Azərbaycan iqtisadiyyatına böyük perspektivlər vəd edir. Əslində, biznes portfelimizin şaxələndirilməsinin və ənənəvi sahələrlə yanaşı, şirkətimiz üçün nisbətən yeni olan sahələrə əhəmiyyətli həcmdə sərmayələrin yatırılmasının əsas səbəbi də məhz perspektivlilik olmuşdur. Xüsusi qeyd etməliyəm ki, bütün bu strateji qərarların verilməsində cənab Prezident İlham Əliyevin uzaqgörənliyi və rəhbərlik əzmi əsas rol oynamışdır.

Cari ildə Azərbaycan, region və Avropa üçün prioritet enerji layihələrindən olan "Cənub Qaz Dəhlizi"nin 4 seqmentindən 3-ü artıq istifadəyə verilmişdir. SOCAR bu nəhəng layihənin təşəbbüskarıdır və təbiidir ki, onun bütün seqmentlərinin tikintisində yaxından iştirak edir. 2014-cü ildə təməli qoyulmuş "Cənub Qaz Dəhlizi" "Şahdəniz" yatağının işlənilməsinin ikinci fazasından, habelə bir-birinə bağlanan 3 boru kəmərindən (Cənubi Qafqaz qaz boru kəmərinin genişləndirilməsi, TANAP və TAP kəmərlərinin inşa edilməsi) ibarətdir. Həmin kəmərlər vasitəsilə təbii qaz Türkiyə və Avropa bazarlarına nəql olunacaq. Dəhliz dünyanın ən böyük qaz-kondensat yataqlarından olan "Şahdəniz"in işlənməsinin ikinci mərhələsi çərçivəsində hasil olunacaq illik 16 milyard kubmetr həcmində əlavə təbii qazın 3 min 500 kilometrlik məsafə üzərindən Türkiyə və Avropa bazarlarına nəql edilməsi məqsədi ilə inşa olunur. Bu il mayın 29-da Səngəçal terminalında "Cənub Qaz Dəhlizi"nin rəsmi açılış mərasimi keçirildi. Azərbaycan Prezidenti İlham Əliyevin, ABŞ, Böyük Britaniya və Türkiyəni təmsil edən rəsmi və işgüzar nümayəndələrin iştirak etdiyi tədbirdə bir daha vurğulandı ki, "Cənub Qaz Dəhlizi" siyasi, iqtisadi, geosiyasi aspektlər üzrə qlobal enerji təhlükəsizliyi sisteminin möhkəmləndirilməsinə mühüm töhfə verəcəkdir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi: "Cənub Qaz Dəhlizi" layihəsi Azərbaycanın indiyədək çox uğurlu olan və Azərbaycana öz iqtisadiyyatını şaxələndirməyə kömək edən enerji strategiyasının əsas elementlərindən biridir". "Cənub Qaz Dəhlizi"nin reallaşdırılmasında yeddi ölkə iştirak edir. Təkcə bu fakt onu göstərir ki, geniş beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirilən layihə gələcəkdə energetika ilə yanaşı, digər sahələrdə də əməkdaşlığın dərinləşməsinə təkan verəcəkdir.

Dünyada qaza olan tələbatın getdikcə artdığı bir dövrdə - 1999-cu ildə kəşf olunmuş və 1 trilyon kubmetr həcmində qaz, 2 milyard barrel kondensat ehtiyatına malik "Şahdəniz" yatağının işlənilməsi təkcə Azərbaycan üçün deyil, bütün region və Avropa ölkələri üçün böyük əhəmiyyət daşıyan layihədir. İndiyədək yataqdan 94.39 milyard kubmetr təbii qaz və 24 milyon ton kondensat hasil edilmişdir. Ekspert rəylərinə əsasən, hazırda "Şahdəniz"də hasil edilməmiş təxminən 625 milyard kubmetr qaz və 117.5 milyon ton kondensat ehtiyatı mövcuddur. Yatağın işlənməsinin II mərhələsi uğurla davam etməkdədir. Bu layihənin həyata keçirilməsi Türkiyə, Gürcüstan, Yunanıstan, Albaniya, Bolqarıstan və İtaliyadakı milyonlarla istehlakçının təbii qaza olan ehtiyaclarını təmin etməyə hesablanmışdır. "Şahdəniz-2" ilk dəfə Xəzər qazını Avropa bazarına çıxaracaq "Cənub Qaz Dəhlizi"nin əsas resurs mənbəyi, başlanğıc nöqtəsidir. Layihə üzrə ümumilikdə 26 quyunun qazılması nəzərdə tutulur. Bu məqsədlə tikilən iki platformanın dayaq blokları və üst tikililəri artıq dənizdə quraşdırılıb. Tarixdə ilk dəfə olaraq, belə bir böyük layihə üzrə bütün əsas tikinti işləri Azərbaycanda və əsasən yerli mütəxəssislərin iştirakı ilə icra olunur. Böyük qürur hissi ilə deməliyik ki, "Şahdəniz" üçün tikilən yeni modullar, nəhəng platformaların dayaq blokları, bütövlükdə bütün tikinti-konstruksiya işləri məhz SOCAR-ın inşaat müəssisələrində həyata keçirilmişdir. Səngəçal terminalında "Şahdəniz-2" qazını qəbul etmək üçün BP tərəfindən aparılan genişləndirmə işləri də artıq başa çatıb. Hazırda hasilatın başlanması ilə çıxarılacaq əlavə qaz həcmlərini qəbul və emal etmək üçün yeni qurğuların istismar sınaqları davam etdirilir. SOCAR-ın Gəmiqayırma zavodunda məxsusi olaraq inşa edilmiş "Xankəndi" gəmisi ilə hasilatı dəstəkləyən sualtı texnoloji təchizat kabellərinin quraşdırılması tamamlanıb. Sualtı xətlər, quyular, platformalar, terminal, bir sözlə, bütün zəruri infrastruktur ilk dəfə olaraq bir-biri ilə dənizin dibində əlaqələndirilib.

Məlumdur ki, Cənubi Qafqaz Boru Kəməri (CQBK) 2006-cı ildən Azərbaycan və Gürcüstanı, 2007-ci ilin iyul ayından isə Türkiyəni "Şahdəniz" (mərhələ-1) qazı ilə fasiləsiz təmin edir. "Cənub Qaz Dəhlizi" yaradılarkən kəmərin genişləndirilməsi zərurəti meydana gəldi və bu layihə artıq başa çatdırılmışdır. CQBK-nin genişləndirilməsi layihəsi Azərbaycan və Gürcüstan ərazilərindən keçən 48 düyüm diametrlik yeni boru kəmərinin və həmçinin Gürcüstan ərazisində 2 ədəd yeni kompressor stansiyasının inşasını əhatə etmişdir. Bununla, boru kəmərinin ötürmə qabiliyyəti 23.4 milyard kubmetrə çatdırılmış və qaz nəqlinin ümumi həcmi 3 dəfə artırılmışdır. Genişləndirilmiş CQBK-nin Gürcüstan-Türkiyə sərhədində qoşulduğu TANAP (Trans-Anadolu qaz boru kəməri) Türkiyə dövlətinin bütün ərazisi boyunca uzanaraq daşınan qazı qardaş ölkənin şərqindən qərbinə nəql edən ilk boru kəməri sistemidir.

Əminəm ki, TANAP Türkiyənin mühüm qitələrarası enerji düyününə (təbii qaz habına) çevrilməsində müstəsna rol oynayacaqdır. TANAP həm də SOCAR üçün böyük önəm daşıyan layihədir. Şirkətimiz məhz bu beynəlxalq layihədə ən böyük iştirak payına malik olmuş və lider rolunu inamla öz üzərinə götürmüş, işin öhdəsindən layiqincə gəlmişdir. Kəmərin inşası prosesində qazanılmış nailiyyətlər göstərdi ki, SOCAR artıq xaricdə də böyük və məsul layihələri vaxtında və yüksək səmərə ilə həyata keçirməyə qadirdir. Bir faktı nəzərə çatdırmaqla kifayətlənək ki, ilkin qiymətləndirmə zamanı layihənin dəyəri 11 milyard dollardan çox hesablanmışdısa, sonradan görülən səmərələşdirmə tədbirləri nəticəsində bu rəqəmi 8 milyarddan aşağı salmaq mümkün olmuşdur. TANAP layihəsi iki mərhələdə həyata keçirilmişdir. İlk mərhələdə təbii qazın Türkiyə ərazisinə çatdırılması və ölkə bazarına daxil edilməsi, ikinci mərhələdə isə Avropa Birliyi sərhədinə qədər nəqli hədəf götürülürdü. Biz bu il birinci mərhələni uğurla başa vura bildik. İyunun 12-də Eskişehirde Azərbaycan və Türkiyə dövlət başçılarının, eləcə də Ukrayna, Serbiya və Şimali Kipr Türk Cümhuriyyəti prezidentlərinin iştirakı ilə TANAP-ın açılış mərasimini qeyd etdik. İyunun 30-dan "Şahdəniz-2" çərçivəsində hasil olunan təbii qazın bu kəmər vasitəsilə kommersiya məqsədilə Türkiyəyə nəql edilməsinə başladıq. Gələn ilin sonunadək boru kəmərinin Avropa Birliyi sərhədinə qədər olan hissəsi tamamlanacaqdır.

2020-ci ilin əvvəlində Trans-Adriatik qaz boru kəməri (TAP) TANAP-a birləşdiriləcək və ildə 10 milyard kubmetr həcmində Azərbaycan təbii qazının Avropa bazarına daşınması reallaşdırılacaq. Artıq TAP layihəsi üzrə mühəndis, təchizat və tikinti də daxil olmaqla ümumi iş həcminin 75 faizdən çoxu icra edilib. Boru kəmərinin funksionallığını təmin etmək üçün ötən ilin birinci yarısında Yunanıstan (Kipoidə) və Albaniyada (Fierdə) 2 kompressor stansiyasının inşasına başlanılıb və işlər qrafik üzrə davam etdirilir. Əminəm ki, TAP layihəsi də tezliklə tamamlanacaq və Avropanın 40 milyard dollar sərmayə tələb edən ən böyük infrastruktur layihəsi "Cənub Qaz Dəhlizi" tam şəkildə icra edilmiş olacaqdır. Bu tarixi nailiyyət bizə imkan verəcək ki, Azərbaycanın zəngin qaz ehtiyatları Türkiyə və Avropa bazarlarına ən qısa və təhlükəsiz yolla çatdırılsın.

Şirkət olaraq yeni idarəetmə üsullarının tətbiqi çərçivəsində əməliyyatlarımızın dayanıqlığını təmin etmək üçün uzunmüddətli planlama, davamlı inkişaf strategiyası həyata keçirilir. Sərmayə qoyuluşlarını şaxələndirməklə, investisiyaları müxtəlif sahələrə yatırmaqla şirkətin bu və ya digər bir məhsul növündən asılılığını azaltmaq qarşımızda duran başlıca məqsədlərdəndir. Bu məqsədə addım-addım yaxınlaşmaqla Azərbaycanın sənaye qüdrətinin və ixrac potensialının artırılmasına töhfələr veririk. Xam neftin qiymətinin kəskin düşdüyü son illərdə neft-kimya məhsullarının qiymətlərində daha yüksək sabitlik müşahidə olunur ki, bu da tutduğumuz yolun düzgünlüyünü bir daha sübut edir. Yeni əməliyyat sahələrində əldə etdiyimiz müsbət təcrübə və nəticələr həmin sahələrdə fəaliyyətimizin genişləndirilməsi üçün zəmin yaratmışdır. SOCAR emal və kimya sahəsində həyata keçirdiyi layihələrin əsas hissəsini bu il tamamlamaqdadır. "SOCAR Polymer" buna əyani misaldır. Layihənin ilk müəssisəsi olan Polipropilen zavodu cari ilin iyulunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın iştirakı ilə istismara buraxıldı. İllik istehsal gücü 180 min ton olan bu zavodun istifadəyə verilməsi ilə ölkəmizin ixrac potensialının önəmli dərəcədə artacağı nəzərdə tutulur. Hazırda aşağısıxlıqlı polietileni ixrac, yüksəksıxlıqlı polietileni isə idxal edirik. Layihənin əsas məqsədi idxalın aradan qaldırılmasına yönəlmişdir. Cari ilin sonunda Polietilen zavodunun da istifadəyə verilməsini planlaşdırırıq ki, bundan sonra "SOCAR Polymer"in iki zavodunda 19 növ polipropilen və 12 növ yüksəksıxlıqlı polietilen olmaqla hər il 300 min ton məhsul istehsal ediləcəkdir. Həmin məhsulun 70 faizinin xarici bazarlara ixrac edilməsi nəzərdə tutulur ki, bu da ölkənin qeyri-neft ixracı potensialının böyük həcmdə yüksəlməsinə xidmət edir.

Prezident İlham Əliyevin müvafiq Sərəncamına uyğun olaraq Sumqayıtda yaradılmış Kimya Sənaye Parkında həyata keçirilən ən iri investisiya layihəmiz - Karbamid zavodunun tikinti işləri də artıq sona çatmaqdadır. Əsaslı layihələndirmə, satınalma və inşaat-montaj işləri 100 faiz tamamlanmış, bütün avadanlıqlar quraşdırılmışdır. Yaxın müddətdə zavodun ammonyak və karbamid istehsalı sahələrində sınaq-sazlama işlərinin aparılması nəzərdə tutulur və cari ilin sonunadək ilk karbamid məhsulunun əldə edilməsi planlaşdırılır. Zavodun istehsal gücü gündəlik 2 min ton və ya illik 650-660 min ton karbamid məhsuluna hesablanmışdır. Bu həcm, ölkənin illik karbamid tələbatını təmin etməyə yetəcək, məhsulun 2/3 hissəsi isə Türkiyəyə ixrac ediləcək. Layihə Azərbaycanda kənd təsərrüfatı sektorunun inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərəcək və əkinçiliyin inkişafını sürətləndirəcəkdir. Beləliklə, "SOCAR Polymer" və Karbamid zavodlarının inşası ölkədə aqrar sektorun, habelə kiçik və orta sahibkarlığın inkişafına münbit şərait yaradacaqdır. "SOCAR Polymer"in məhsulları xammal kimi istifadə olunaraq, plastik istehlak məhsullarının istehsalına stimul verəcək və qeyri-neft sektorunun genişlənməsində mühüm rol oynayacaqdır.

Yeni istehsal sahələrimizdə əlavə dəyər yaradan son istehlak məhsullarının ilkin xammal bazasını hasil etdiyimiz neft-qaz həcmləri, habelə propan-propilen, butan-butilen fraksiyaları, quru qaz və s. kimi ənənəvi neft emalı və kimyası məhsulları təşkil edir. Həmin məhsulların istehsalında dinamikanın artırılması, ən əsası isə yerli dizel yanacağı və avtomobil benzinlərinin keyfiyyətinin Avro-5 standartına çatdırılması, yeni bitum istehsalatının yaradılması, reaktiv mühərrik yanacağının istehsal miqdarının və keyfiyyətinin artırılması, habelə istismar xərclərinin azaldılması və gəlirliyin artırılması məqsədilə Heydər Əliyev adına Neft Emalı Zavodunda və "Azərikimya" İB-də həyata keçirilən genişmiqyaslı yenidənqurma və modernizasiya işləri uğurla davam etdirilir. Bu işlər çərçivəsində neftin ilkin emal qurğusunun və Katalitik Krekinq qurğusunun yenidən qurulması və emal güclərinin artırılması, bir sıra yeni qurğuların da inşa edilməsi nəzərdə tutulur. Eyni zamanda, ümumzavod təsərrüfatının yenilənməsi üzrə işlər həyata keçiriləcək. Nəticədə Heydər Əliyev adına NEZ-in istehsal gücü ildə 6 milyon tondan 7,5 milyon tonadək, istismar müddəti isə 2040-cı ilədək artırılacaqdır. Mərhələli olaraq həyata keçirilən bu işlərin 2018-2021-ci illərdə tamamlanması gözlənilir. Cari ilin sonunda ölkənin gündən-günə genişlənən avtomobil yol infrastrukturuna tələb olunan müasir asfalt örtüyünün istehsalı üçün beynəlxalq standartlara cavab verən bitumun buraxılmasına başlamağı planlaşdırırıq. Yenidənqurma layihəsinə Amerikanın "UOP", "Fluor", "KBR", Fransanın "Axens", İtaliyanın "Wood" (keçmiş "Foster Wheeler") və "Technimont", Avstriyanın "EDL-Poerner" kimi nüfuzlu şirkətləri cəlb olunub.

Azərbaycanın Türkiyədəki ən böyük aktivi olan "Petkim" kimya kompleksi özəlləşdirilərək şirkətimizin idarəçiliyinə keçən dövrdən rentabelliyini xeyli artırmışdır. Müəssisənin 2017-ci ildə əldə etdiyi xalis mənfəət ötən ilə nisbətən iki dəfəyə yaxın artaraq, 1.4 milyard türk lirəsi təşkil etmişdir. Bu sənaye nəhənginin vaxtaşırı təkmilləşdirilməsi istiqamətində icra olunan investisiya proqramları hesabına müəssisənin Türkiyə neft-kimya məhsulları bazarındakı payının artırılması hədəflənir və işlərin gedişi göstərir ki, SOCAR-ın bu hədəfə tezliklə çatması tamamilə realdır. "Petkim"in xammala olan tələbatını yaxşılaşdırmaq və Türkiyə bazarında yanacaq məhsulları idxalını məhdudlaşdırmaq məqsədi ilə 2012-ci ildən İzmirin Əliağa bölgəsində tikintisinə başladığımız illik emal gücü 10 milyon ton xam neft olan "STAR" Neft Emalı Zavodunun inşası da yekunlaşmaq üzrədir. Bu zavodun tikilib istifadəyə verilməsi ilə Aralıq dənizi bazarında SOCAR-ın mövqeləri xeyli möhkəmlənəcəkdir. Zavodun müxtəlif markalı neftlər, əsasən "Ural", "Azeri Light" və "Kərkük" neft növlərini emal edə bilməsi qarşıya qoyduğumuz hədəflərdəndir. 76 çəni (rezervuarı) olan "STAR" zavodunun ümumi anbar həcmi 1.640.000 kubmetr təşkil edəcək. Yaxın müddətdə fəaliyyətə başlaması planlaşdırılan zavodda sınaq-sazlama işlərinin həyata keçirilməsi üçün avqust ayının əvvəllərindən emal üçün 80 min ton "Azeri Light" markalı Azərbaycan nefti ayrılmışdır. SOCAR-la "Rosneft" arasında bu yaxınlarda imzalanmış müqaviləyə əsasən, 2018-ci ilin dekabr ayından etibarən 1 il ərzində "STAR" zavodunun 1 milyon ton Rusiya nefti ilə təchiz olunması gözlənilir. Kontrakt hər iki şirkətin əlverişli əməkdaşlığının genişlənməsinə dəlalət edir və SOCAR-ın Türkiyədəki yeni neftayırma obyektlərinin stabil yüklənməsi üçün əlavə təminat yaradacaq. "STAR" ilk növbədə "Petkim"i xammalla (yüngül və ağır nafta) təmin etmək məqsədi daşıyır. Zavod istismara veriləndən sonra bir çox məhsulların istehsalı üçün əhəmiyyətli xammal əldə olunacaq ki, bu da "Petkim"in iqtisadi səmərəliliyini daha da artıracaqdır. Qeyd etmək lazımdır ki, SOCAR-ın idarəçiliyində olduğu son 10 ildə bu neft-kimya kompleksinə 800 milyon ABŞ dolları civarında, "STAR" neft emalı zavoduna 5,1 milyard ABŞ dolları investisiya yatırılmış və yüksək əmək məhsuldarlığına nail olunmuşdur.

SOCAR-ın gələcək hədəfləri sırasında Türkiyədə daha bir neft-kimya kompleksinin inşası nəzərdə tutulur. Yeni layihənin texniki-iqtisadi əsaslandırmasının 2019-cu ilin aprel ayında yekunlaşdırılması, həmin ilin iyun ayında tikinti işlərinə başlanılması planlaşdırılır. Yeni neft-kimya kompleksində ilkin istehsalın 2022-ci ilin sonu və ya 2023-cü ilin əvvəlində başlanılması nəzərdə tutulur.

Azərbaycanda da daha bir kimya kompleksini ərsəyə gətirməyi planlaşdırır. Qaradağ rayonu ərazisində tikiləcək "SOCAR GPC" Qaz Emalı Zavodu və "SOCAR Polymer"in əməliyyat konsepsiyası təbii qazın tərkibində olan ağır C2+ fraksiyalardan təmizlənməsini nəzərdə tutur. Təmizlənən fraksiyalar yüksək keyfiyyətli polimer məhsulların istehsalı üçün istifadə olunacaq, təbii qazın əsasını təşkil edən təmizlənmiş metan isə ölkə təsərrüfatına qaytarılacaq. Beləliklə, zavod itkiləri qazanca çevirərək, ölkənin kimya sənayesinin inkişafına daha bir töhfə gətirəcək. Hazırda yeni Qaz Emalı Kompleksi ilə bağlı xarici investorlarla danışıqlar aparılır. Artıq kompleks üzrə ilkin mühəndislik və layihələndirmə işlərini (FEED) bitirmişik. "Açıq kitab" əsasında xərclərin smetası (OBCE) müqaviləsi üzrə işlər yekunlaşdırılır. Maliyyələşmə və investisiya məsələləri öz həllini tapdıqdan sonra, layihə növbəti mərhələyə - Mühəndislik, Satınalma və Tikinti üzrə EPC müqaviləsinin imzalanmasına keçəcək.

Cari ildə SOCAR daha bir ilkə imza ataraq Azərbaycanda Sıxılmış Təbii Qaz (STQ) bazarına daxil olmuşdur. STQ hazırda nisbətən az istifadə olunan yanacaq növü olsa da, dünya üzrə tələbatı sürətlə artmaqdadır. Proqnozlara görə dünyada STQ-a olan tələbat 2025-ci ilə qədər 4 dəfəyə yaxın artacaq. Gələcək illərdə SOCAR-ın əməliyyat portfeli çərçivəsində STQ satışını genişləndirmək nəzərdə tutulan perspektivli layihələrdən biridir.

Emal sənayesini xammalla təchiz etmək üçün Azərbaycan neftçilərinin qarşısında son illərdə duran əsas vəzifə hasilatın səviyyəsini sabit saxlamaq olub. 2017-ci il noyabrın 8-də ölkəmizdə 2 milyardıncı ton neft hasil edildi. Azərbaycan neftçilərinin zəngin təcrübəsi, əzmkarlığı, bilik və bacarıqları köhnə yataqlarda neft hasilatının stabil saxlanmasına, hətta ayrı-ayrı yataqlar üzrə yüksək hasilat göstəriciləri əldə olunmasına imkan vermişdir. Dövlət şirkəti olaraq SOCAR-ın bu nailiyyətlərində şübhəsiz ki, dövlətimizin və möhtərəm Prezidentimiz İlham Əliyevin dəstəyi və bütün bu işlərə məharətlə rəhbərlik etməsi müstəsna önəm daşıyır. Neftçilərimiz "Qarabağ", "Ümid-Babək", "Abşeron" və digər yeni perspektivli sahələrin işlənməsi sayəsində neft hasilatının sabit saxlanılması, qaz hasilatının isə artırılması əzmindədirlər. Yeni yataqların işlənməsi ilə bağlı xarici tərəfdaşlarla birgə mühüm qərarlara imza atılmışdır.

Azərbaycan neftinin dünya bazarında layiqli yer tutması üçün onun düzgün brendləşdirilməsi vacibdir. Məhz bu səbəbdən möhtərəm Prezidentimiz Azərbaycan neftinin müstəqil brend kimi dünya bazarına çıxarılmasını qarşımızda məqsəd qoymuşdur. 2007-ci ildə İsveçrədə təsis etdiyimiz "SOCAR Trading" şirkəti qısa bir müddətdə SOCAR-ın və digər şirkətlərin neft və neft məhsullarının beynəlxalq bazarlarda alqı-satqısını təşkil etmiş, üçüncü tərəflərin ticarət əlaqələrində vasitəçilik etməklə yanaşı, SOCAR-ın qlobal strateji inkişafına dəstək vermişdir. İlk mərhələdə "SOCAR Trading" yüksək keyfiyyətli "Azerilayt" neftini yüngül neft brendi kimi dünya bazarlarında tanıtmış, bununla Azərbaycana təkcə 2008-2013-cü illərdə 1,8 milyard dollara qədər əlavə gəlir qazandırmışdır. Bu gün "SOCAR Trading" şirkəti təkcə Azərbaycan neftini deyil, artıq daha çox üçüncü tərəflərin neft və neft məhsullarının ticarətini həyata keçirir. Törəmə şirkətimiz 2017-ci il ərzində ümumilikdə 104 milyon ton neft məhsulu ticarətini həyata keçirmişdir ki, bunun da 24 milyon tonu Azərbaycan neftinin payına düşür.

Dayanıqlı inkişafın bir önəmli şərti də ətraf mühitin qorunması və bərpasıdır. SOCAR son 15 il ərzində ölkəmizdə daha geniş vüsət tapan ekoloji hərəkatın ön sıralarında gedir. Şirkətimizin ekoloji siyasətinin əsas prioritetlərini neft-qaz yataqlarının işlənməsi, istismarı və emalı zamanı neftlə çirklənmiş torpaqların təmizlənməsi, lay sularının və səmt qazlarının idarə olunması, istilik effekti yaradan qazların azaldılması, yaşıllaşdırma tədbirlərinin genişləndirilməsi təşkil edir. Ötən bir il ərzində 53,45 ha ərazi neft və neft məhsullarından təmizlənərək abadlaşdırılmışdır. Şirkətimiz iştirak etdiyi layihələrdə atmosferə atılan səmt qazlarının azaldılması üzrə proqramı müvəffəqiyyətlə icra etməkdədir. SOCAR son illər ərzində atmosferə atılan səmt qazlarının minimuma endirilməsi istiqamətində müvafiq nailiyyətlər əldə etmiş və Dünya Bankının "2030-cu ilə qədər səmt qazlarının normal hasilat prosesində yandırılmasının sıfıra endirilməsi" qlobal təşəbbüsünə ilk qoşulan şirkətlər arasındadır. SOCAR bu istiqamətdə Dünya Bankının "Səmt Qazının Yandırılmasının Azaldılması üzrə Qlobal Tərəfdaşlıq" (GGFR) Təşkilatı ilə əməkdaşlıq edir. Cari ilin mayında SOCAR-ın təşəbbüsü ilə Bakıda qurumun toplantısı keçirildi. Xarici tərəfdaşlarımız, eləcə də bu sahənin mütəxəssisləri ilə şamda yandırılan qazın azaldılması istiqamətində Azərbaycanın təcrübəsinin öyrənilməsi, əldə olunan yüksək nailiyyətlərlə yaxından tanışlıq və bu təcrübənin xaricdə tətbiqi məsələlərinin mümkünlüyü ilə bağlı maraqlı müzakirələr apardıq.

SOCAR həyata keçirdiyi layihələrlə ölkə iqtisadiyyatının dayanıqlı inkişafına mühüm töhfələr verməkdədir. Bütün bu uğurlar bilavasitə Azərbaycan Respublikasının möhtərəm Prezidenti İlham Əliyevin adı ilə sıx bağlıdır. Məhz Prezident İlham Əliyevin respublikamıza rəhbərliyi illərində SOCAR yeni inkişaf mərhələsinə qədəm qoyaraq, öz fəaliyyətinin bütün sahələrində ciddi islahatlar aparmaqla yanaşı, yeni fəaliyyət sahələrini də gerçəkləşdirmişdir. Cənab Prezidentin uzaqgörən strateji kursu və qarşımızda qoyduğu vəzifələr SOCAR-ı qlobal brend səviyyəsinə qədər yüksəltdi. Bu uğurlar, eyni zamanda, Azərbaycan neftçilərinin fədakar əməyindən, zəngin təcrübəsindən və peşəkarlığından qaynaqlanır. Neft və qazın çıxarılması nə qədər çətin və məsuliyyətli vəzifə olsa da, üzərimizə götürdüyümüz vəzifə və öhdəliklərin yerinə yetirilməsi, böyük və çoxsaylı layihələrin ərsəyə gətirilməsinin təntənəsinə biz, Azərbaycan neftçiləri məhz bu ildə yetişdik. SOCAR və Azərbaycan üçün taleyüklü olan cari ildə əsas layihələrimizin tamamlanması inkişafımızın son nöqtəsi deyil, məhz dönüş nöqtəsidir ki, qarşımızda yeni üfüqlər açır. Odur ki, əvvəlki layihələrimiz hələ tamamlanmamış bu gün yeni layihələrin təməlini qoymaq - SOCAR-ın qarşısında duran ən mühüm vəzifədir. ■

# 20 SENTYABR - NEFTÇİLƏR GÜNÜ



*Ümummilli lider, ulu öndər Heydər Əliyevin böyük səyləri nəticəsində 20 sentyabr 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasıyla Azərbaycanın neft sənayesində yeni era başlandı. Nəticədə Azərbaycanın enerji təhlükəsizliyi tam təmin olundu və ölkənin iqtisadi-siyasi həyatının bütün sahələrində böyük inkişaf əldə edildi. Ulu öndər Heydər Əliyevin hazırladığı neft strategiyası bu gün möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Günü-gündən inkişaf edən Azərbaycan Respublikasının firavan gələcəyi üçün neft sənayesi işçilərinə, dost və qardaş Azərbaycan xalqına daha böyük uğurlar arzulayırıq.*

TEKFEN İNŞAAT


# "Bilik günü" və yeni dərs ilinin başlanması ilə əlaqədar tədbirlər

## *Bakı Dövlət Universitetinin Qazax filialında*






Bilik Günü və yeni dərs ilinin başlanması BDU-nun Qazax filialında təmtəraqla qeyd edilib. Tədbirdə Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, filialın müəllim və tələbələri, valideynlər və KİV nümayəndələri iştirak ediblər.

Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra filialın direktoru, coğrafiya elmləri doktoru, Əməkdar elm xadimi, professor Vüsət Əfəndiyev çıxış edərək universitetə yeni daxil olan tələbələri təbrik edib, onlara yeni dərs ilində müvəffəqiyyətlər arzulayıb. Qeyd edib ki, bu təhsil ocağı Prezident İlham Əliyevin 29 aprel 2016-cı il tarixli sərəncamı ilə Bakı Dövlət Universitetinin Qazax filialı kimi fəaliyyətə başlamışdır. Yeni tədris ili ərəfəsində filialın tədris binası əsaslı şəkildə təmir olunmuş, müəllim və tələbələr üçün yüksək şərait yaradılmışdır. Filialın maddi-texniki bazası gücləndirilmiş, əyani və metodiki vasitələrlə təmin edilmişdir. Görülən işlərin və tədrisin səviyyəsinin yüksək olmasının nəticəsidir ki, filialı seçən tələbələrin sayı ilbəil artmaqdadır. Əgər 2016-2017-ci tədris ilində filiala 139 tələbə daxil olmuşdusa, 2017-2018-ci tədris ilində bu rəqəm artaraq 389-a çatmışdır. Bu il isə 562 tələbə təhsil almaq üçün BDU-nun Qazax filialını seçmişdir. Ən diqqətçəkən cəhət odur ki, universiteti seçmiş tələbələrin əksəriyyəti qəbul imtahanlarında 500-600-dən çox bal toplayanlardır.

Sevindirici haldır ki, filialda ixtisasların da sayı getgedə artır. Bu tədris ilində isə daha 4 yeni ixtisas da əlavə olmaqla 17 ixtisas üzrə qəbul aparılmışdır.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbirdə çıxış edərək filiala yeni qəbul olan tələbələri səmimi qəlbdən təbrik edib, onlara öz tövsiyələrini verib.

Sonra filialın şöbə müdiri Qasım Əliyev BDU-nun rektoru, akademik Abel Məhərrəmovun filialın müəllim və tələbələrinə göndərdiyi təbrik məktubunu oxuyub.

Filialın baş müəllimi Heyran Vəkilova, qəbul imtahanlarında 640 bal toplamış I kurs tələbəsi Cəmilə Məmmədova, valideyn Nigar İsmayıllı tədbirdə çıxış edərək öz ürək sözlərini söyləyiblər.

Tədbirin sonunda qəbul imtahanlarında yüksək bal toplamış I kurs tələbələrinə Qazax Rayon İcra Hakimiyyəti tərəfindən qiymətli hədiyyələr, gül dəstələri verilib.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# Əlamətdar gün



Ölkəmizin hər yerində yeni dərs ilinin başlanması "Bilik Günü" təntənəli surətdə böyük coşqu, bayram kimi qeyd olunur. Bu gün uşaqları ilk dəfə məktəbin birinci sinfinə gedən valideynlərin ən yaddaqalan anlarındandır. Azərbaycan təhsilinin inkişafını özünün fəaliyyət istiqamətində ən prioritet elan edən ölkə Prezidenti cənab İlham Əliyev 21 avqust 2004-cü il tarixli fərmanı ilə bütün təhsil ocaqlarında dərslərin 15 sentyabrdan başlanmasını qərara almış və həmin gün ölkəmizdə "Bilik Günü" elan olunmuşdur.

Belə möhtəşəm tədbirlərdən biri də öz ənənələri olan, son zamanlar təhsil sahəsində uğurlar əldə edən 2 saylı texniki humanitar liseydə keçirildi. Məktəbin kollektivi bu əlamətdar günü yüksək əhval-ruhiyyə ilə qarşılayır. Bayramsayağı bəzədilmiş məktəbin həyətində böyük canlanma vardı və hamı "Bilik Günü"nə həsr olunmuş tədbirin açılışını gözləyirdi. Məktəbin müəllimləri, yuxarı sinif şagirdləri, məzunlar, ilk dəfə məktəbə qədəm qoyan birincilər və onların valideynləri, hər kəs böyük sevinc içində idi. Üçrəngli bayrağımız gətirildi və Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra tədbir açıq elan edildi və **2 nömrəli texniki humanitar liseyin direktoru Bəkir Mustafayev** ilk öncə məktəbin pedaqoji kollektivini, şagird və valideynləri, tədbirdə iştirak edən qonaqları yeni dərs ilinin başlanması münasibətilə təbrik etdi, onlara yeni tədris ilində uğurlar arzuladı.

Bəkir müəllim çıxışında milli təhsilimizin inkişafında ulu öndərimiz Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü təhsil islahatlarından, bu sahənin ən müasir tələblərə cavab verməsi üçün gördüyü işlərdən danışdı və bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyevin ulu öndərimizin təməlini qoyduğu təhsil siyasətini müasir dövrün çağırışlarına uyğun olaraq dinamik şəkildə apardığını vurğuladı və son illər təhsil sahəsində qazanılan uğurlardan danışdı. O, qeyd etdi ki, dövlətimizin təhsilin inkişafına göstərdiyi qayğı məhz bu sahəyə diqqətin bariz təzahürüdür. Sevindirici haldır ki, rəhbərlik etdiyim liseydə təmir-tikinti işləri ən müasir tələblərə uyğun təmir olunmuş və cənab Prezident açılışda şəxsən iştirak etmişdir. Cənab Prezident məktəbdə yaradılan şəraitlə yaxından tanış olmuşdur və ona məktəb-lisey haqqında, ötən illərdə əldə olunan uğurlar barədə ətraflı məlumat verilmişdir. Liseyin kollektivi dövlətimizin başçısına liseydə yaradılan bu şəraitə görə öz minnətdarlıqlarını bildirdilər və əmin etdilər ki, bundan sonra da savadlı, hərtərəfli biliyə malik gənc nəslin yetişdirilməsi yolunda bilik və bacarıqlarını əsirgəməyəcəklər, lisey həmişə olduğu kimi, öncüllər sırasında olacaqdır. Bunun üçün liseydə güclü müəllim potensialı mövcuddur.

Onu da qeyd edim ki, lisey 500 yerlikdir və hazırda tədris müəssisəsində 506 şagird təhsil alır. Şagirdlərin təlim-tərbiyəsi ilə 62 nəfər müəllim məşğuldur. Bu il məktəbi qurtaran 66 nəfər məzundan 12 nəfəri 600-dən yuxarı bal toplamışdır. Məzunlardan 25 nəfər şagirdimiz 500-dən yuxarı balla ali məktəblərə qəbul olunmuşdur. Məzunlardan Turanə Həsənli 665 bal, Nərmin Kazımlı 657 bal, Vəfa Məmmədova 653 bal, Sara Sadıqova 629, Kəbirə Quliyeva da 624 balla tələbə adını qazanmışlar və s.

Məktəb-liseydə fənn kabinetləri də yüksək səviyyədə təşkil olunmuşdur. Bunlardan biologiya, hərbi hazırlıq, informatika kabineti və digərlərini göstərmək olar. Vurğulayım ki, son üç ildə 3 nəfər Əməkdar müəllim adına, 2 nəfər "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Bütün bunların hamısının təməlində dövlətimizin təhsilə, onun inkişafına göstərdiyi diqqət və qayğı durur.

**Əli SADIQOV,**
**"Respublika".**


# TENDER ELANI

Hörmətli cənablar!

Bununla Sizi işlərin (xidmət, çatdırılma) yerinə yetirilməsinə dair tenderdə iştirak etməyə dəvət edirik: "LUKOYL" qrupu təşkilatlarının obyektlərində işləyən personal üçün, firma və xüsusi geyim forması kataloquna uyğun, xüsusi geyim formasının sifarişi.

**Keçirilən tender barədə ümumi məlumat:**

Operatorlar, elektriklər, mexaniklər və xadimələr üçün xüsusi geyim formasının alınması: isti qış gödəkcəsi, yay gödəkcəsi, yay və qış üçün kombinezon, yay və qış kepkası, yağış plaşı, yay və qış xalatı.

Xüsusi geyim forması 27575-87, 12.4.031-84, 12.4.101-93, 12.4.131-83 saylı DÜİST-nin tələblərinə, texniki şərtlərinə cavab verməli, yararlı, antistatik və istifadəyə uyğun olmalı. Tender iştirakçılarının texniki imkanları, kontraktın şərtlərinin yerinə yetirilməsini təsdiq edən lazımi sənədləri olmalıdır. Bununla yanaşı, xüsusi geyim formasının nümunələri və onların sertifikatları təqdim edilməlidir.

Sifarişçi: "LUKOYL-Azərbaycan" QSC, ünvan: Azərbaycan, Bakı şəhəri, Z.Tağıyev küç.13.

Əlaqə telefonları:
+99412-497-41-10,
+99412-497-41-24,
+99412-497-41-97.
**E-mail:** Samir.Gumbatov@lukoil.com.

İşin (xidmət, çatdırılma) başlama vaxtı: 01 dekabr 2018-ci il

İşin (xidmət, çatdırılma) qurtarma vaxtı: 01 dekabr 2019-cu il

Tender sənədlərinin tam kompleksi, tenderdə iştirak etmək üçün alınmış Sifarişin, həmçinin, sənaye təhlükəsizliyi, əməyin və ətraf mühitin mühafizəsi tələblərinə uyğun olaraq, dərəcə anketinin ekspertizadan sonra sizin ünvana göndəriləcəkdir.

İştirakçının tenderdə iştirak etməsi barədə Sifarişinin, həmçinin, sənaye təhlükəsizliyi, əməyin və ətraf mühitin mühafizəsi tələblərinə uyğun Dərəcə anketinin təqdim edilmə müddəti:

03 oktyabr 2018-ci il tarixdə 18:00-dək

Tender təklifinin təqdim etmə müddəti:19 oktyabr 2018-ci il tarixdə 18:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidir.

Tenderin (1-ci mərhələ) keçirilmə vaxtı və yeri:

Azərbaycan, Bakı şəhəri, Z.Tağıyev küç.13.

22 oktyabr 2018-ci il tarixdə 11:00-dək

"İştirakçının tenderdə iştirak etməsi barədə" Sifarişin və "Sənaye təhlükəsizliyi, əməyin və ətraf mühitin mühafizəsi tələblərinə uyğun Dərəcə anketinin" forması, eyni zamanda digər məlumatı dəvətdə göstərilən telefonlar və elektron poçtu ünvanı ilə almaq olar.

## Azərbaycan Memarlıq və İnşaat Universiteti

# AÇIQ TENDER ELAN EDİR

**"Azərbaycan Memarlıq və İnşaat Universitetində "Kommunal və kommunikasiya xidmətləri (2 saylı tədris binasına və 3 saylı tədris binasının əlavə tikintisinə 0,4 kV-luq elektrik xəttinin çəkilməsi)" işləri üzrə tender elan edir.**

Tender iştirakçılarına təklif olunur ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, yuxarıda göstərilən işlər üzrə tender təkliflərini möhürlənmiş şəkildə ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilələrin vaxtında yerinə yetirilməsi, analoji işlərində təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarna malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 100 (bir yüz) AZN məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində əsas Şərtlər toplusunu Ayna Sultanova küçəsi, 11 ünvanında yerləşən Azərbaycan Memarlıq və İnşaat Universitetindən (Əlaqələndirici şəxs: V.R.Ələkbərovdan, Telefon: 538-75-07) ala bilərlər.

İştirak haqqı bu hesaba köçürülməlidir:

Azərbaycan Memarlıq və İnşaat Universiteti
**Ünvan: AZ 1073, Bakı şəhəri, Ayna Sultanova küçəsi, 11**
**VÖEN:1300430721**
**H/h: AZ36AİİB33070019443307889103**
**Kapital Bank Yasamal filialı**
**KOD - 200037, VÖEN: 9900003611**
**M/h: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T.AİİBAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü qüvvədə qalmalıdır);*

*-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*

*-Son 1 (bir) il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*- iddiaçının son 1(bir) il ərzində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*

*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət Satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 26 oktyabr 2018-ci il saat 15:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş 2 qat zərfdə 02 noyabr 2018-ci il saat 17:00-a qədər Azərbaycan Memarlıq və İnşaat Universitetinə (ünvan: Bakı şəhəri, Ayna Sultanova küçəsi, 11) Telefon: 538-75-07 təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 05 noyabr 2018-ci il saat 11:00-da Bakı şəhəri, Ayna Sultanova küçəsi 11 ünvanındakı 307 saylı otaqda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## "Bakı Metropoliteni" QSC-nin Bənövşəyi xətti üzrə şərti adı "B03" stansiyasında "Qatarların hərəkət istiqaməti göstəricisi sistemi" və "Sərnişin məlumat sistemi" üçün monitorların quraşdırılmasına lazım olan mal-materialların satın alınması üzrə

# AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 20-dən, (Əlaqələndirici şəxs: İlqar Qasımov telefon: 490-00-91) ala bilərlər.

**LOT-1.** "Bakı Metropoliteni" QSC-nin Bənövşəyi xətti üzrə şərti adı "B03" stansiyasında "Qatarların hərəkət istiqaməti göstəricisi sistemi" və "Sərnişin məlumat sistemi" üçün monitorların quraşdırılmasına lazım olan mal-materialların satın alınması.

**İştirak haqqı- 200 manat**
**Hesabın adı: BAKI METROPOLİTENİ QSC**
**Hesab nömrəsi (İBAN):**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı:**
**AZ02NABZ01350100000000022944**
**SWİFT BİK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır).*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) "29" oktyabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə "06" noyabr 2018-ci il saat 17:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 20, ünvanına "İcraya Nəzarət, kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri "07" noyabr 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**"BAKI METROPOLİTENİ" QSC**
**TENDER KOMİSSİYASI.**

# AZPETROL

"Azpetrol" şirkətinin rəhbərliyi və kollektivi Azərbaycanın neft və qaz sənayesi işçilərini **20 sentyabr – "Neftçilər Günü"** münasibətilə ürəkdən təbrik edir, Azərbaycan xalqına və həmkarlarına can sağlığı, xoşbəxtlik, səadət, firavan həyat, sülh, əmin-amanlıq, xoş gələcək və işlərində davamlı uğurlar arzulayır.



## Ekologiya və Təbii Sərvətlər Nazirliyi
## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 3 (üç) lot üzrə keçirilir:**

**Lot-1.** Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binasının III mərtəbəsinin cari təmiri işlərinin satın alınması,

**Lot-2.** Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binasının dam örtüyünün cari təmiri işlərinin satın alınması,

**Lot-3.** Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binasının sanitar qovşaqlarının əsaslı təmiri işlərinin satın alınması.

Hər üç lot üzrə işlər barədə ətraflı məlumat (miqdarı, həcmi, xüsusiyyətləri, təqdim olunması vaxtı və yeri və s.) tenderin əsas şərtlər toplusunda göstərilmişdir.

İddiaçılara təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlı zərfdə yazılı surətdə təqdim etsinlər.

İddiaçılar öz tender təkliflərini bütün zəruri vergi və rüsumları nəzərə almaqla hesablamalıdırlar. Tender təklifləri bal sistemi üsulu ilə qiymətləndiriləcəkdir. Təkliflərin qiymətləndrilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, qrafikə uyğun malların (işlərin və xidmətlərin) təhvil verilməsi.

Əlavə məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət edilə bilər. Əlaqələndirici şəxs: Gülüşov Tural Nuru oğlu.

Tel.: (012) 538 12 94, ünvan: Bakı şəhəri, B.Ağayev 100A.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır.

Tenderin əsas şərtlər toplusunu almaq istəyənlər birinci lot üzrə 110 manat, ikinci lot üzrə 65 manat, üçüncü lot üzrə 185 manat iştirak haqqı köçürdükdən sonra yuxarıda göstərilən ünvandan ala bilərlər.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

**Alan bank: Dövlət Xəzinədarlığı Agentliyi,**
**VÖEN: 1401555071,**
**kod: 210005,**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWİFT: CTREAZ22**
**Alan təşkilat: Ekologiya və Təbii Sərvətlər Nazirliyi,**
**VÖEN: 1300032591**
**Büdcə təsnifatının kodu: 142340,**
**Büdcə səviyyəsinin kodu: 7, fond 7,**
**HesabN: AZ41CTRE00000000000002198470**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün 23 oktyabr 2018-ci il saat 17:00 tarixə qədər aşağıdakı sənədləri (tender təklifi və təklifin 2% bank zəmanəti istisna olmaqla) təqdim etməlidirlər.

*-Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-İştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-Analoji işlərdə təcrübəsi, iddiaçının potensial, texniki və kadr imkanları haqqında rəsmi məlumat;*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*-tikinti-quraşdırma işlərini həyata keçirməyə icazə verən lisenziya.*

İddiaçılar tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır) və ümumi təklifin 2%-i həcmində tender təklifinin təminatını - bank zəmanətini (tender təklifinin qüvvədə olma müddətindən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır) 30 oktyabr 2018-ci il saat 17:00-a qədər iki nüsxədən ibarət (əsli və surəti) ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə Bakı şəhəri, B.Ağayev k., 100A ünvanında yerləşən tender komissiyasına təqdim etməlidirlər.

İddiaçıların tender təklifləri Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklif zərfləri Bakı şəhəri, B.Ağayev 100A ünvanında yerləşən Ekologiya və Təbii Sərvətlər Nazirliyi inzibati binasında 31 oktyabr 2018-ci il tarixdə:

Lot-1 üzrə saat 12:00-da, lot-2 üzrə saat 15:00-da, lot-3 üzrə saat 16:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndəsi etibarnamə əsasında tenderdə iştirak edə bilər.

**Tender komissiyası.**

## Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Sabirabad Regional Mədəniyyət İdarəsi
## Kotirovka sorğusu elan edir:

224400 İstilik enerjisi (yanacaq odun) haqqının ödənilməsi.

Təkliflərin qiymətləndirilməsində iştirak edən iddiaçılar maddi-texniki bazaya, yüksək keyfiyyətlə, müqavilə şərtlərinin vaxtında yerinə yetirilməsinə, eləcə də cari ildə Mədəniyyət İdarəsi ilə əməkdaşlıq edən təchizat işlərin görülməsində potensial imkanı olan iddiaçılara üstünlük verilir.

Açılış tarixi: 30 oktyabr 2018-ci ildə saat 12:00-da
**Əlaqələndirici şəxs:** Tender komissiyasının üzvü: Əlikram Əliyev
**Telefon:** 2852153
**Ünvan:** Sabirabad şəhəri İ.İsgəndərov 8.

## BİLDİRİŞ

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Tender Komissiyası tərəfindən "Respublika" qəzetinin 03 avqust və 14 avqust (təkrar) 2018-ci il tarixli saylarında dərc olunmuş açıq tender elanlarında, "LOT-2. Kompüterlərə və ofis avadanlıqlarına servis xidməti" üzrə keçirilməsi nəzərdə tutulmuş açıq tenderdə tender təklifi vermiş iddiaçıların sayı üçdən az olduğundan, tenderin davamından imtina olunur.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

**12 sentyabr 2018-ci il tarixdə keçirilmiş "İnventarın alınması" üzrə tenderin nəticələri universitetin maliyyə çətinliyi ilə əlaqədar olaraq, tərəfimizdən ləğv edilmişdir.**

---

Azərbaycan Memarlıq və İnşaat Universiteti tərəfindən Nəbiyev Nəcəf İbrahim oğluna verilmiş 16/200025 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

AzMİU-nun nəzdindəki İnşaat Kolleci tərəfindən Osmanlı İbrahim İlham oğluna verilmiş 02/10592 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

AzMİU-nun nəzdindəki İnşaat Kolleci tərəfindən Kərimov Hüseyn Ceyhun oğluna verilmiş 04/1127 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Manafov Afət Əbil oğlunun adına Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi kənd təsərrüfatı müəssisəsi tərəfindən 21.05.2003-cü il tarixli 28 nömrəli əmirdən çıxarış itdiyi üçün etibarsız sayılır.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Lənkəran ərazi idarəsi tərəfindən Lənkəran şəhərinin Ş.İ.Xətai küçəsi 62 ünvanında yerləşən və Məmmədov Aydın Əliağa oğluna məxsus fərdi yaşayış evinə verilmiş Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış (seriya MA; 0335083; reyestr №802013014858-10301; qeydiyyat №2211009685; qeydiyyat tarixi: 6 yanvar 2012-ci il) və 3795 inventar nömrəli texniki pasport (tərtib edilmə tarixi: 5 yanvar 2012-ci il) itdiyi üçün etibarsız sayılır.

Lerik rayon aqrar islahat komissiyasının 25 dekabr 1998-ci il tarixli 46 nömrəli qərarı ilə Piran kənd sakini Kəlbiyev Hüseyn Ağababa oğluna verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN: 156 A; KOD: 80318088) itdiyi üçün etibarsız sayılır.

"Xəzər" YKT MMC-nin 31.08.2010-cu il tarixli Nizamnaməsinin və 1501664271 nömrəli VÖEN şəhadətnaməsinin əsilləri itdiyi üçün etibarsız sayılır.

Abşeron rayonu, Saray qəsəbəsində Mürsəlov Tarix Hüseyn oğluna məxsus 0,10 ha torpaq sahəsinə dair JN-36 saylı (kod 30800086) şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

## Bakı Şəhər İcra Hakimiyyəti İnzibati Xidmət obyekti
## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 lot üzrə keçirilir.**
**Lot-1. Cari təmir işlərinin görülməsi**

Tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə, ikiqat zərflərdə, yazılı surətdə təqdim etsinlər. Müqavilənı yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə 50 (əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, İstiqlaliyyət küçəsi 18 ünvanından (əlaqələndirici şəxs: İslamova Zeyvənisə Məhərrəm qızı, tel.: 492-94-16) ala bilərlər.

**A1. Emitent bank Remiting bank**
**Adı/Name: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu/Code: 210005**
**VÖEN/İNT: 1401555071**
**Müxbir hesab/Corr ACC:**
**AZ41NABZ 01360100000000003944**
**S.W.İ.F.T./ BİK — CTREAZ22**
**A2. Ödəyən müştəri/ Ordering Customer**
**Adı/Name: B.Ş.İ.H. İnzibati xidmət obyekti**
**Hesab/ Account:**
**AZ11CTRE00000000000002518334**
**VÖEN/İNT: 1700462051**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*—tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*—tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
*—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*—iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

Görülən işlər təqdim olunmuş qrafikə əsasən yerinə yetirilməlidir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri tender təklifi və bank zəmanəti istisna olmaqla 23 oktyabr 2018-ci il saat 17:00-dək tender təklifi və bank zəmanətini isə 31 oktyabr 2018-ci il saat 17:00-da möhürlənmiş ikiqat zərfdə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 1 noyabr 2018-ci il saat 10:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsi 2018-ci ilə tələb olunan dəftərxana və təsərrüfat, mətbəə, digər alışlar və xidmətlər və sair xərclərə olan tələbatını ödəmək məqsədi ilə

TƏKRAR

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 4 (dörd) Lot üzrə aparılır:**

**Lot 1.** Dəftərxana və təsərrüfat mallarının satın alınması.

**Lot 2.** Mətbəə.

**Lot 3.** Digər alışlar maddəsi üzrə mal və materialların satın alınması.

**Lot 4.** Sair xərclər.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş və imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Müqavilənin yerinə yetirilmə müddəti 1 il.

Tenderdə iştirak etmək istəyənlər hər lot üzrə 50 (əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzə Şəfi küçəsi 4 ünvanında yerləşən

**(Əlaqələndirici şəxs: Nazim Əliyev**
**Telefon: 050 212-06-46) ala bilərlər.**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**SWİFT: CTREAZ22**
**Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsi**
**İBAN: AZ94CTRE00000000000002178310**
**VÖEN: 1700164931**
**Büdcə təsnifatının kodu: 142340**
**Büdcə səviyyəsinin kodu: 7**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədləri;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışı;*
*- İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*
*- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- İddiaçıların son bir ildə analoji işlər üzrə təcrübəsi, sertifikat, lisenziya və potensial imkanı haqqında məlumatı;*

Tender sənədləri Azərbaycan dilində, 2 nüsxədən (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 24 sentyabr 2018-ci il, saat 18:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 08 oktyabr 2018-ci il, saat 18:00-a qədər Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinə (Bakı şəhəri, Mirzə Şəfi küçəsi 4) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılaçaqdır.

İddiaçıların təklifləri 09 oktyabr 2018-ci il tarixdə, saat 15:00-da Bakı şəhəri, Mirzə Şəfi küçəsi 4-də açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tender zərflərinin açılışı prosedurunda iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## ALLAH RƏHMƏT ELƏSİN

**Bakı Dövlət Universitetinin təbiət fakültələri üzrə İngilis dili kafedrasının professor-müəllim heyəti professor Nizaməddin İsgəndərova, qardaşı**

**CAVİD İSGƏNDƏROVUN**

**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

---

**BDU-nun sosial elmlər və psixologiya fakültəsinin dekanlığı, professor-müəllim heyəti sosial və pedaqoji psixologiya kafedrasının dosenti Mustafayev Müşviqə, atası**

**HÜSEYN müəllimin**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

● **Redaksiyanın telefonları:**
İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**



● **Redaksiyanın ünvanı:**
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi**
**Əli SADIQOV**

● **Çapa imzalanmışdır**
**19.09.2018**